RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 164 (9619) 4 avqust 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Heydər Əliyev ideyalarını yaşadan Azərbaycan

### 1969-cu il 5 avqust plenumunda əsas diqqət güclü iqtisadiyyatın yaradılmasına və sağlam milli kadrların yetişdirilməsinə yönəldilmişdi



Ümummilli Lider 5 avqust plenumundan sonrakı illərdə də, təbii ki, dövrün müəyyən qaydaları çərçivəsindən kənara çıxmayaraq öz siyasi xəttini yeridir, çəkinmədən sözünü deyir, fikirlərini sərbəst açıqlayır, mövcud problemlərin aradan qaldırılması, zəruri vəzifələrin yerinə yetirilməsi üçün qətiyyətli addımlar atırdı. Məhz o zaman Heydər Əliyev yeni iş tərzinə malik siyasi lider kimi təkcə ittifaq miqyasında deyil, həm də bütün dünyada tanındı. Ulu Öndər 1981-ci ilin 18 noyabrında "Literaturnaya qazeta"ya verdiyi məşhur "Qoy ədalət zəfər çalsın!" başlıqlı müsahibəsində o dövrdə respublikanın həyatı ilə bağlı ən müxtəlif məsələlərə toxunaraq demişdi: "Kommunist Partiyası MK-sının avqust plenumundan, respublikanın həyatındakı ciddi nöqsanları Azərbaycan zəhmətkeşlərinə düzgün və açıq bildirən bu plenumdan düz on gün sonra burjua mətbuatı hay-küy qaldırmış və cinayət xarakterli sensasiyaların sorağında dayanmışdı.

Qeyd etmək istəyirəm ki, biz "qanunçuluq" deyəndə cinayət məcəlləsindən çox cəmiyyətimizin əxlaq kodeksini nəzərdə tuturuq. Özü də bu baxımdan hüquq pozuntuları, onların profilaktikası bizim üçün təkcə hüquqa aid məsələ deyildir. Bu, sosial və mənəvi məsələdir, çünki söhbət ən əvvəl insan uğrunda mübarizədən, sovet adamının hüquqlarına hörmətdən, ləyaqət və şərəfinin qorunmasından, onda ən yaxşı vətəndaşlıq keyfiyyətləri, yüksək əxlaqi prinsiplərin tərbiyə edilməsindən gedir. Azərbaycan partiya təşkilatının işi məhz belə bir mövqeyə əsaslanır və məhz bu mövqe böyük əksəriyyət, həyatda, əməkdə yüksək əxlaq prinsiplərini rəhbər tutan zəhmətkeşlər tərəfindən qızğın surətdə bəyənilmişdir... Biz xalqa kömək edib onda haqqa-ədalətə inam oyatmalı idik... Ağır, çətin proses idi. Mən "idi" sözünü heç də ona görə demirəm ki, indi vəziyyət idealdır, ona görə deyirəm ki, bu prosesin pozulmazlığı real həqiqətə çevrilmişdir".

Məhz belə prinsipial, qətiyyətli mövqe sayəsində Heydər Əliyev çox qısa zaman ərzində Azərbaycanın ictimai-siyasi həyatında ciddi dönüş yaratmağa nail oldu. Kadrların düzgün seçimi, onlara qarşı tələbkarlığın artırılması işin effektivliyini yüksəltdi. Ümummilli Liderin gərgin zəhməti, fədakarlığı, eyni zamanda şəxsi nüfuzu sayəsində bir-birinin ardınca qəbul edilən inkişaf proqramları sayəsində Azərbaycan böyük bir quruculuq meydanına çevrildi. Respublikada iri müasir maşınqayırma, kimya, neft kimyası və elektron sənayesi, əlvan və qara metallurgiya, yüngül, yeyinti və emal sənayesi müəssisələri tikildi, habelə elektroenergetika, nəqliyyat kompleksi ciddi şəkildə inkişaf etməyə başladı. 1980-ci ilin göstəricilərinə görə, sənayenin əsas istehsal fondlarının dəyəri 1969-cu ildəki ilə müqayisədə iki dəfə artırıldı.

→ 5



# Seçki kampaniyasının ilkin mərhələsi uğurla başa çatdı

## 881 nəfərin deputatlığa namizədliyi qeydə alındı

MSK-nın dünən keçirilən iclasında bildirilib ki, Milli Məclisə sentyabrın 1-də keçiriləcək seçkilərlə əlaqədar indiyə qədər 14 min 506 nəfər yerli müşahidəçi akkreditasiyadan keçib.

MSK sədri Məzahir Pənahov qeyd edib ki, bu müşahidəçilərdən 5477 nəfəri Mərkəzi Seçki Komissiyasında, 9029-u isə dairə seçki komissiyalarında qeydiyyatdan keçib.

Eyni zamanda seçkiləri müşahidə etmək üçün 8 beynəlxalq qurumdan və 26 ölkədən 99 nəfər akkreditə olunub.

Seçki kampaniyalarının əsas mərhələlərindən biri isə namizədlərin seçkiqabağı təşviqatının həyata keçirilməsidir. Seçki kampaniyasının bu mərhələsində qeydə alınmış namizədlər seçicilərin dəstəyini qazanmaq üçün təşviqat və təbliğatla məşğul olurlar. Bu isə seçkidə qalib gəlmək üçün olduqca vacib məsələdir.

Respublikamızda seçkiqabağı təşviqatın aparılması səsvermə gününə 23 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır. Beləliklə, sentyabrın 1-nə təyin edilmiş parlament seçkilərində seçkiqabağı təşviqatın aparılması avqustun 9-da başlayacaq, avqustun 31-i saat 08:00-da dayandırılacaq. Seçkiqabağı təşviqat qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri tərəfindən aparılır.

Qarşıdan gələn növbədənkənar parlament seçkilərində seçkiqabağı təşviqat aparmaq məqsədilə ölkə üzrə birmandatlı seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına ödənişsiz efir vaxtı və dərc üçün yer ayıracaq media subyektlərinin adı məlumdur. Eyni zamanda Milli Məclisə növbədənkənar seçkilərdə seçkiqabağı təşviqatın media subyektlərində ödənişli əsaslarla da aparılması mümkündür.

Milli Məclisə sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkilər respublikamızda müstəqillik dövründə keçirilən sayca 7-ci parlament seçkiləri olacaq. Eləcə də bu, müstəqillik illərində işğaldan azad edilmiş ərazilərimizdə təşkil edilən ilk parlament seçkiləri kimi tarixə düşəcək. Bütün bunlarla yanaşı, növbədənkənar parlament seçkiləri Azərbaycanın demokratik inkişafının növbəti təcəssümünə çevriləcək.

→ 4

## Qərəzli və əsassız mövqeyə görə Fransa ölkəmizdən üzr istəməlidir

Olimpiada ilə əlaqədar ölkəyə gələn turistlərin artması səbəbindən metro və qatarlarda ciddi sıxlıqlar və gecikmələr yaranıb.

"Aftonbladet" nəşrinin məlumatına görə, stolüstü tennis yığması üzrə İsveçin milli komandası gediş-gəliş üçün 1 saat 20 dəqiqə vaxt sərf edərək məşqə çıxmalı olduqlarından yazıb. Məşqçi Yorqen Persson bildirib ki, avtobuslarda kondisioner işləmir və hava çatışmazlığı səbəbindən nəqliyyatda qalmaq mümkünsüz olur.

Yeri gəlmişkən qeyd edək ki, Beynəlxalq Olimpiya Komitəsi "Paris-2024" Yay Olimpiya Oyunlarının açılış mərasiminin şərhi zamanı "France2" telekanalının müxbirinin işlətdiyi ifadələrə görə Azərbaycandan üzr istəyib. Olimpiya Oyunlarının açılışı zamanı ölkəmizə qarşı əsassız iddialara və qərəzli mövqeyə görə Fransa hökumətinin də Azərbaycandan rəsmi şəkildə üzr istəməsini gözləyirik.

→ 7



## Parlament seçkiləri ilə bağlı proses demokratik və şəffaf keçir

Seçki prosesini demokratik edən amillərdən biri müşahidəçilərdir. Hər bir namizəd və ya siyasi partiya məntəqələrə öz müşahidəçilərini təyin edir və onlar öz vəkillərini müəyyənləşdirirlər. Seçkiöncəsi şəraiti qiymətləndirməkdən ötrü ölkəmizə xarici müşahidəçilər də dəvət olunurlar. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun nümayəndələrinin ölkəmizə gəlməsi seçkilərə beynəlxalq marağı göstərməklə bərabər Azərbaycanın bu sahədə əməkdaşlığa hazır olduğunu göstərir.

Bütün proseslər ölkəmizdə sentyabrın 1-də seçkilərin azad, ədalətli və demokratik keçiriləcəyini göstərir. Azərbaycan seçiciləri öz iradəsini müstəqil şəkildə ifadə edəcək və seçki məntəqələrinə gedərək istədikləri namizədə səs verəcəklər. Bu seçkilər ölkəmizin həyatında yeni mərhələnin başlandığı zamanda keçirilir, ona görə də tarixi əhəmiyyət daşıyır.

→ 4

## COP29-un gündəliyinin tarixin yaddaşına hopacağına şübhə yoxdur

Şuşa, Kəlbəcər, Ağdam, Zəngilan və Füzuli rayonlarında 5 meteoroloji stansiyanın quraşdırılması ilə bağlı tədbirlər görülür. Qarabağın və Şərqi Zəngəzurun "yaşıl enerji" zonası elan edilməsi də ekoturizmin əlindən tutur. Regionlara üz tutan əcnəbilərin hər cür "yük"ünü daşıyacaq bələdçilər qlobal tədbirin nahaqdan Azərbaycanda keçirilmədiyini göstərəcəklər. Turizm agentliklərinin dediyinə görə, bələdçilər beynəlxalq standartlara uyğun hazırlanaraq 27 dildə fəaliyyət göstərirlər. Bununla belə təlimsiz və təhsilsiz bələdçilər var ki, onlara da COP29-un başlayacağı vaxta kimi xüsusi kurslar keçiriləcək. COP29-un qlobal təhlükəsizliyə töhfə verməsi, Azərbaycanın tanıdılması və daha da inkişaf etdirilməsi həmin günlərdə turizm sektorunun birnömrəli vəzifəsinə çevriləcək. Şübhəsiz, on illərin təcrübəsini qazanmış turizm bu sınaqdan alnıaçıq çıxacaq.

→ 8





## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib

**Avqustun 3-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə komissiyanın avqustun 1-də keçirilən iclasının protokolu təsdiq edilib.

Sonra 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb.

Bildirilib ki, daxil olan müraciətlər vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması üçün qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada hərtərəfli, obyektiv araşdırıldıqdan sonra operativ şəkildə iclasa çıxarılıb.

Beynəlxalq müşahidə missiyası təmsilçilərinin, media subyektləri nümayəndələrinin, eləcə də maraqlı subyektlərin bilavasitə iştirakı ilə keçirilən iclasda müraciətlər geniş müzakirə edilib və müvafiq qərarlar qəbul olunub.



İclasın sonunda qarşıdan gələn Milli Məclisə seçkilərlə bağlı müxtəlif məsələlər diqqətə çatdırılıb, namizədlərin irəli sürülməsi, qeydə alınması və müşahidəçilərin akkreditasiyasına dair statistik göstəricilər elan olunub, həmçinin cari məsələlərə baxılıb.

# MSK Milli Məclisə seçkilərlə əlaqədar "Seçki günü üçün yaddaş" kitabçası hazırlayıb

**2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyası (MSK) müxtəlif statuslu seçki iştirakçılarının maarifləndirilməsi proqramı çərçivəsində "Seçki günü üçün yaddaş" kitabçası hazırlayıb.**

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, layihə məntəqə seçki komissiyaları üzvlərinin seçki günü prosedurları barədə məlumatlılığının artırılması və fəaliyyətlərinin daha da təkmilləşdirilməsi məqsədi daşıyır.

Nəşrdə məntəqə seçki komissiyaları üzvlərinin seçki günü rol və vəzifələri, seçki məntəqəsinin açılması, səsvermə saatlarında tədbirlər, səsvermə prosesində müstəsna hallar, seçki məntəqəsinin bağlanması, səslərin hesablanması, səsvermənin nəticələri müəyyənləşdirilərək rəsmi protokolların doldurulması da daxil olmaqla, bütün prosedurların aydın, müfəssəl və əhatəli izahı verilib.

Seçki Məcəlləsinin müddəaları, Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi təlimat, izah, qayda və digər normativ xarakterli sənədlər əsasında hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası dairə və məntəqə seçki komissiyalarının üzvlərinə, müşahidəçilərə, habelə maraqlanan seçki subyektlərinə çatdırılıb.

"Seçki günü üçün yaddaş" kitabçasını aşağı seçki komissiyalarından, eləcə də Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsindən (**www.msk.gov.az**) əldə etmək olar.




QƏRAR № 26/117

# 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 2 avqust 2024-cü il tarixli 08 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 99 saylı Bərdə seçki dairəsi üzrə namizədliyi Respublikaçı Alternativ (REAL) Partiyası tərəfindən irəli sürülmüş Əliyev Zöhrab Camal oğlu 2024-cü il avqustun 2-də Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək, namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 31 iyul 2024-cü il tarixli 25/65 saylı Qərarını mübahisələndirmiş, həmin qərarın ləğv olunmasını və namizədliyinin qeydə alınması barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Namizəd Z.C.Əliyev müraciətində qeyd etmişdir ki, 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 99 saylı Bərdə seçki dairəsi üzrə namizədliyi Respublikaçı Alternativ (REAL) Partiyası tərəfindən irəli sürülmüş, həmin seçki dairəsinin ərazisində seçicilərin imzası toplanaraq imza vərəqələri və ona əlavə edilmiş digər seçki sənədləri dairə seçki komissiyasına təqdim edilmişdir. İddiaçı mülkiyyət hüququ əsasında ona məxsus olan əmlak barədə məlumatın dairə seçki komissiyası tərəfindən natamam araşdırıldığını və bu səbəbdən də namizəd kimi qeydə alınmasından imtina edildiyini iddia edir.

Araşdırma ilə əlaqədar şikayətçi ilə əlaqə saxlanılmış, onun araşdırmada, komissiyanın iclasında iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, o, iclasda iştirak edəcəyini bildirsə də, sonradan iclasa gələ bilməyəcəyi barədə məlumat vermişdir.

Dairə seçki komissiyası namizədliyi Respublikaçı Alternativ (REAL) Partiyası tərəfindən irəli sürülmüş Z.C.Əliyevin deputatlığa namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 31 iyul 2024-cü il tarixli 25/65 saylı Qərarını onunla əsaslandırmışdır ki, namizəd mülkiyyət hüququ və ümumi birgə mülkiyyət hüququ əsasında ona məxsus olan nəqliyyat vasitələri barədə məlumatları dairə seçki komissiyasına düzgün təqdim etməmişdir.

Namizəd Z.C.Əliyevin namizədliyinin qeydə alınması üçün təqdim olunmuş imza vərəqələri və digər seçki sənədləri Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən araşdırılmışdır. Araşdırma ilə müəyyən edilmişdir ki, Z.C.Əliyev ona xüsusi və ümumi birgə mülkiyyət hüququ əsasında məxsus nəqliyyat vasitələri barədə dairə seçki komissiyasına düzgün məlumat verməmişdir.

Seçki Məcəlləsinin 58.3-ci maddəsinə görə, xüsusi mülkiyyət hüququ əsasında (o cümlədən ümumi mülkiyyət hüququ əsasında) namizədə məxsus olan əmlak barədə məlumatlar həmin Məcəllənin 5 saylı Əlavəsinə uyğun formada təqdim edilir.

Seçki Məcəlləsinin 60.2.3-cü maddəsinə görə, namizəd həmin Məcəllənin 58-ci maddəsinə uyğun olaraq məlumatları düzgün təqdim etmədikdə onun namizəd kimi qeydə alınmasından imtina edilir.

Beləliklə, aparılan tam və hərtərəfli araşdırma ilə müəyyən edildi ki, namizəd Z.C.Əliyev tərəfindən xüsusi və ümumi birgə mülkiyyət hüququ əsasında ona məxsus nəqliyyat vasitələri barədə dairə seçki komissiyasına düzgün məlumat verilməməsi Seçki Məcəlləsinin 60.2.3-cü maddəsinə əsasən onun namizədliyinin qeydə alınmasından imtina üçün hüquqi əsas yaratmışdır.

Göstərilənlərə əsasən Z.C.Əliyevin 2 avqust 2024-cü il tarixli 08 saylı şikayəti əsassız olduğundan təmin edilməməli, dairə seçki komissiyasının 31 iyul 2024-cü il tarixli 25/65 saylı Qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 25.2.1-ci, 25.2.22-ci, 28.2-ci, 58-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlima"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 99 saylı Bərdə seçki dairəsi üzrə namizədliyi Respublikaçı Alternativ (REAL) Partiyası tərəfindən irəli sürülmüş Əliyev Zöhrab Camal oğlunun 2 avqust 2024-cü il tarixli 08 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 31 iyul 2024-cü il tarixli 25/65 saylı Qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*03.08.2024*

*Məzahir PƏNAHOV:*

# "881 nəfərin deputatlığa namizədliyi qeydə alınıb"

**"Milli Məclisə növbədənkənar seçkilərdə iştirak üçün 1508 nəfər müraciət edib. 1462 nəfərin namizədliyinin irəli sürülməsi təsdiqlənib".**



AZƏRTAC xəbər verir ki, bu sözləri Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov MSK-nın avqustun 3-də keçirilən iclasında söyləyib.

MSK sədri əlavə edib ki, 1191 nəfər imza vərəqələrini qaytarıb, 881 nəfərin deputatlığa namizədliyi qeydə alınıb.

# *MSK-nın sədri:* "Parlament seçkilərini izləmək üçün 99 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib"



**"Sentyabrın 1-də keçiriləcək Milli Məclisə növbədənkənar seçkilərdə müşahidəçi qismində iştirak etmək üçün indiyədək ümumilikdə 14 min 506 yerli müşahidəçi akkreditasiyadan keçib".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov MSK-nın avqustun 3-də keçirilən iclasında söyləyib.

O bildirib ki, bu müşahidəçilərdən 5477 nəfəri Mərkəzi Seçki Komissiyasında, 9029-u isə dairə seçki komissiyalarında qeydiyyatdan keçib.

M.Pənahov vurğulayıb ki, növbədənkənar parlament seçkilərini müşahidə etmək üçün 8 beynəlxalq qurumdan və 26 ölkədən 99 nəfər akkreditə olunub. Belə ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosundan 40 nəfər, MDB Parlamentlərarası Assambleyasından 36 nəfər, Müstəqil Dövlətlər Birliyindən 14 nəfər, Maldiv Mərkəzi Seçki Komissiyasından 3 nəfər, Gürcüstan Mərkəzi Seçki Komissiyasından 2 nəfər, Pakistan Mərkəzi Seçki Komissiyasından 2, Qazaxıstan Mərkəzi Seçki Komissiyasından 1, Monteneqro Seçki Komissiyasından isə 1 nəfər akkreditasiyadan keçib.

QƏRAR № 26/116

# Mərkəzi Seçki Komissiyasının 2024-cü il 1 avqust tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 1 avqust tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*03.08.2024*



# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## QƏRAR № 26/118

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 2 avqust 2024-cü il tarixli 10 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 46 saylı Sumqayıt beşinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş İbrahimov Əzimağa Fəxrəddin oğlu 2 avqust 2024-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 1 avqust 2024-cü il tarixli 20/50 saylı Qərarını mübahisələndirmiş, həmin qərarın ləğv edilməsini və müvafiq tədbir görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"da nəzərdə tutulmuş müddətdə və qaydada verildiyindən Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdıraraq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun komissiyanın iclasında iştirakı təmin edilmişdir.

2024-ci il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 46 saylı Sumqayıt beşinci seçki dairəsi üzrə Ə.F.İbrahimovun namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş və dairə seçki komissiyasının 22 iyul 2024-cü il tarixli 15/35 saylı Qərarı ilə namizədliyi təsdiq edilmişdir.

Namizəd Ə.F.İbrahimov tərəfindən namizədliyin qeydə alınması üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilmiş digər seçki sənədləri 26 iyul 2024-cü il tarixdə dairə seçki komissiyasına təqdim edilmişdir.

Seçki Məcəlləsinin 60.1-ci maddəsinə görə, müvafiq seçki komissiyası imza vərəqələrini və namizədin qeydə alınması üçün lazım olan digər sənədlərini qəbul etdikdən sonra 7 gün müddətində namizədin qeydə alınıb-alınmaması barədə əsaslandırılmış qərar qəbul etməlidir.

Müraciətlə bağlı dairə seçki komissiyasının sədri ilə əlaqə saxlanılmış və o bildirmişdir ki, Seçki Məcəlləsinin 60.1-ci maddəsi ilə müəyyən edilmiş müddətdə dairə seçki komissiyası namizəd Ə.F.İbrahimovun namizədliyin qeydə alınması üçün təqdim etdiyi imza vərəqələri və ona əlavə edilmiş digər seçki sənədlərindəki məlumatları araşdıraraq namizədin də iştirak etdiyi komissiyanın iclasında bütün məsələləri müzakirə etdikdən sonra onun namizədliyinin qeydə alınmasından imtina edilməsi barədə qərar qəbul etmiş və dairə seçki komissiyasının 1 avqust 2024-cü il tarixli 20/50 saylı Qərarı namizəd Ə.F.İbrahimova təqdim edilmişdir.

Dairə seçki komissiyasının qərarı namizədə təqdim olunduqdan sonra müəyyən edilmişdir ki, iclasda müzakirə edilmiş məsələ texniki səhvə yol verilərək, yəni ümumi mülkiyyət hüququ əsasında daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmış Bakı şəhərində yerləşən və sahəsi 59,85 kv.m olan mənzilin namizəd tərəfindən təqdim edilmiş əmlak barəsində məlumatda göstərilməməsi qərara daxil edilməmişdir. Buraxılmış texniki səhv dərhal aradan qaldırılmış və namizəd dəvət edilərək tam qərar ona təqdim edilmişdir.

Dairə seçki komissiyası tərəfindən namizədin qeydə alınmasından imtina edilməsi barədə qəbul edilmiş qərar tərtib edilərkən buraxılmış texniki səhv həmin komissiya tərəfindən dərhal aradan qaldırılaraq tam qərar namizədə təqdim edilsə də, namizəd tərəfindən mübahisələndirildiyindən onun müraciəti təmin edilməli, dairə seçki komissiyasının 1 avqust 2024-cü il tarixli 20/50 saylı qərarı ləğv edilməli, Ə.F.İbrahimovun namizədliyinin qeydə alınıb-alınmaması məsələsinə dairə seçki komissiyasında yenidən baxılmalıdır.

Seçki Məcəlləsinin 112-1.11.5-ci maddəsinə görə, Mərkəzi Seçki Komissiyası şikayətçinin qaldırdığı məsələnin müvafiq seçki komissiyasında yenidən baxılması haqqında qərar qəbul edə bilər.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 60.1-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş İbrahimov Əzimağa Fəxrəddin oğlunun 2 avqust 2024-cü il tarixli 10 saylı müraciəti təmin edilsin, 46 saylı Sumqayıt beşinci seçki dairəsi dairə seçki komissiyasının 1 avqust 2024-cü il tarixli 20/50 saylı qərarı ləğv edilsin, Ə.F.İbrahimovun namizədliyinin qeydə alınıb-alınmaması məsələsinə həmin dairə seçki komissiyasında yenidən baxılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*03.08.2024*

## QƏRAR № 26/121

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 1 avqust 2024-cü il tarixli 07 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 25 saylı Nizami ikinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Mehdi Əliş Vəli oğlu 1 avqust 2024-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək, namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 31 iyul 2024-cü il tarixli 19/61 saylı Qərarını mübahisələndirmiş, həmin qərarın ləğv olunmasını və namizədliyinin qeydə alınması barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"da nəzərdə tutulmuş müddətdə və qaydada verildiyindən, Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq rəy verilmiş və komissiyanın iclasında mahiyyəti üzrə baxılmışdır.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun araşdırma prosesində və komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Dairə seçki komissiyası namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Ə.V.Mehdinin namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 31 iyul 2024-cü il tarixli 19/61 saylı Qərarını onunla əsaslandırmışdır ki, toplanmış 500 seçici imzası olan 10 ədəd imza vərəqəsi və onlara əlavə edilmiş digər seçki sənədləri dairə seçki komissiyasına təqdim edilmiş, komissiyanın nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən imza vərəqələri yoxlanarkən bəzi imzaların şübhə doğurduğu və bununla əlaqədar yoxlama aparılması zərurəti yarandığını nəzərə alaraq 25 saylı Nizami ikinci seçki dairəsi dairə seçki komissiyası məktubla namizədin təqdim etdikləri imza vərəqələrindəki imzaların yoxlanılması üçün xəttşünas ekspertlərin ayrılması barədə Mərkəzi Seçki Komissiyasına müraciət etmişdir. Bu məqsədlə Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən İşçi qrupunun mütəxəssisləri sırasından xəttşünas ekspertlər ayrılmış və həmin ekspertlərin rəylərindən, imza vərəqələrindəki imzaların düzgünlüyünün yoxlanılması barədə işçi qrupunun protokolundan görünür ki, təqdim olunan 10 imza vərəqəsində olan 500 imzadan 9 imza Seçki Məcəlləsinin 56.2-ci maddəsinin tələbləri pozulmaqla 25 saylı Nizami ikinci seçki dairəsinin ərazisindən kənarda toplandığından, yoxlanılmış 230 ədəd imzadan 198 ədəd imza 86 qrup olmaqla öz aralarında eyni şəxs tərəfindən icra edildiyindən 112 seçici imzası qeyri-düzgün hesab olunmuşdur. Bununla da təqdim edilmiş 500 seçici imzasından 121 seçici imzası qeyri-düzgün hesab edilmişdir. Təqdim edilmiş etibarlı (düzgün) seçici imzalarının lazım olan saydan az olması namizədin qeydə alınmasından imtina üçün əsas olmuşdur.

Araşdırma prosesində namizəd Ə.V.Mehdi tərəfindən təqdim edilmiş imza vərəqələri, ona əlavə edilmiş seçki sənədləri dairə seçki komissiyasından tələb edilərək götürülmüş və təkrar olaraq yoxlanılması üçün Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupuna təqdim edilmişdir. Mübahisələndirilən və qeydiyyatdan imtina üçün əsas olmuş 9 seçici imzasının Seçki Məcəlləsinin 56.2-ci maddəsinin tələbləri pozulmaqla 25 saylı Nizami ikinci seçki dairəsinin ərazisindən kənarda toplanması, yoxlanılmış 230 ədəd imzadan 198 ədəd imza 86 qrup olmaqla eyni şəxs tərəfindən icra edilməsi nəticəsində 112 seçici imzasının qeyri-düzgün olması və ümümilikdə 121 seçici imzasının etibarsız olması tərtib edilmiş 2 avqust 2024-cü il tarixli protokol və ekspert rəyi ilə öz təsdiqini tapmışdır.

Seçki Məcəlləsinin 59.2-ci maddəsinə görə işçi qrupunun tərkibinə müvafiq orqanların mütəxəssisləri sırasından cəlb edilən ekspertlərin rəyləri imza vərəqələrində olan məlumatların düzgün olub-olmamasını təsdiq edən əsas kimi qəbul edilir.

Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən, namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanılmalıdır.

Seçki Məcəlləsinin 60.2.4-cü maddəsinin tələbinə görə namizədin müdafiəsi üçün təqdim edilmiş etibarlı (düzgün) seçici imzalarının lazımi saydan az olması namizədin qeydə alınmasından imtina üçün əsasdır.

Göstərilənlərlə müəyyən edilir ki, etibarlı (düzgün) seçici imzalarının sayı Ə.V.Mehdinin namizədliyinin qeydə alınması üçün kifayət etmədiyindən dairə seçki komissiyasının onun namizədliyinin qeydə alınmasından imtina edilməsi barədə gəldiyi hüquqi nəticə Seçki Məcəlləsinin tələblərinə uyğun olmuşdur. Dairə seçki komissiyası tərəfindən maddi və prosessual hüquq normaları düzgün tətbiq edilmişdir.

Beləliklə, namizəd Ə.V.Mehdinin müraciəti əsassız olduğundan təmin edilməməli, namizədliyin qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 31 iyul 2024-cü il tarixli 19/61 saylı Qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 56-cı, 57-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 147-ci və 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 25 saylı Nizami ikinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Mehdi Əliş Vəli oğlunun 1 avqust 2024-cü il tarixli 08 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 31 iyul 2024-cü il tarixli 19/61 saylı Qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*03.08.2024*

## QƏRAR № 26/119

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 31 iyul 2024-cü il tarixli 05 saylı şikayətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 32 saylı Suraxanı üçüncü seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Cəfərli Fikrət Novruz oğlu 2024-cü il iyulun 31-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək namizəd kimi qeydə alınmasından imtinaya dair həmin seçki dairəsi dairə seçki komissiyasının 30 iyul 2024-cü il tarixli 17/49 saylı qərarını mübahisələndirmiş, müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsinin) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Namizəd F.N.Cəfərli şikayətində bildirmişdir ki, 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 32 saylı Suraxanı üçüncü seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş, həmin seçki dairəsinin ərazisində seçicilərin imzası toplanaraq imza vərəqələri və ona əlavə edilmiş digər seçki sənədləri vaxtında dairə seçki komissiyasına təqdim edilmiş, lakin namizəd öz gəlirlərinin miqdarı və mənbəyi haqqında düzgün məlumat vermədiyinə görə dairə seçki komissiyasının mübahisələndirdiyi qərarı ilə onun namizəd kimi qeydə alınmasından imtina edilmişdir. Eyni zamanda o, şikayətində namizədliyin qeydə alınması ilə bağlı məsələyə baxılarkən dairə seçki komissiyasının iclasına dəvət olunmadığını, seçki sənədlərində aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması üçün ona şərait yaradılmadığını göstərmişdir.

Araşdırma prosesində ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Dairə seçki komissiyası namizədliyi irəli sürülmüş F.N.Cəfərlinin namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə qərarını onunla əsaslandırmışdır ki, işçi qrupunun namizədin gəlirlərinin miqdarı və mənbəyi barədə məlumatların yoxlanılmasına dair rəyində onun 2023-cü ilin son 6 ayı üzrə muzdlu işdən gəlir əldə etdiyi müəyyən edilmiş və namizəd gəlirlərinin miqdarı və mənbəyi haqqında məlumatları seçki sənədində düzgün göstərmişdir, buna görə də Seçki Məcəlləsinin 58.1.4-cü və 60.2.3-cü maddələrinə əsasən onun namizədliyinin qeydə alınmasından imtina edilmişdir.

Araşdırma ilə əlaqədar namizəd F.N.Cəfərli tərəfindən namizədliyin qeydə alınması üçün təqdim edilmiş sənədlər dairə seçki komissiyasından tələb edilərək yoxlanılması üçün Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən işçi qrupuna verilmişdir. İşçi qrupunun 2 avqust 2024-cü il tarixli rəyindən məlum olur ki, namizəd F.N.Cəfərlinin öz gəlirlərinin miqdarı və mənbəyi barədə təqdim etdiyi məlumata əsasən 1 iyul 2023-cü il tarixdən 1 iyul 2024-cü il tarixədək olan dövrdə 25571,60 (iyirmi beş min beş yüz yetmiş bir manat altmış qəpik) manat məbləğində qeyd etdiyi gəlirlər qeyri-sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlərdən ibarətdir. Aparılan araşdırma nəticəsində həqiqətən də onun gəlirlərinin miqdarı və mənbəyi barəsində təqdim etdiyi həmin məlumatda göstərmədiyi, lakin 2023-cü ilin son altı ayını əhatə edən dövr üzrə muzdlu işdən 2070,0 (iki min yetmiş) manat məbləğində gəlirlərinin olduğu aşkar edilmişdir. Göstərilən məbləğ isə namizədin gəlirlərinin miqdarı və mənbələri barədə olan Qaydalara 1 saylı əlavədə "Əsas iş yerindən aylıq əməkhaqqı" bölümündə öz əksini tapmamışdır.

Bundan başqa, namizəd tərəfindən təqdim olunmuş 15 iyul 2024-cü il tarixli Kapital Bankın ödəniş kartı (debet) üzrə çıxarışda müxtəlif tarixlərdə köçürülmüş məbləğlərdə namizədə aid olan 2023-cü ilin son altı ayı üzrə hər ay üçün ayrı-ayrılıqda minimum əməkhaqqı məbləğində (345,0 manat) olan ödənişlər öz əksini tapmamışdır.

Beləliklə, F.N.Cəfərlinin öz gəlirlərinin miqdarı və mənbəyi barədə dairə seçki komissiyasına verdiyi məlumatların düzgün olmaması Seçki Məcəlləsinin 60.2.3-cü maddəsinə əsasən namizədliyin qeydə alınmasından imtina üçün əsasdır və dairə seçki komissiyası bu əsaslarla F.N.Cəfərlinin namizədliyinin qeydə alınmasından imtina etməkdə düzgün qənaətə gələrək qərar qəbul etmişdir.

F.N.Cəfərlinin şikayətində göstərdiyi namizədliyin qeydə alınması ilə bağlı məsələyə baxılarkən dairə seçki komissiyasının iclasına dəvət olunmadığına, eləcə də seçki sənədlərində aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması üçün ona şərait yaradılmadığına dair iddiaları araşdırılarkən dairə seçki komissiyasının sədrindən, katiblərindən və həmin dairə seçki komissiyası nəzdində yaradılmış işçi qrupunun rəhbərindən alınan izahatlardan aydın oldu ki, F.N.Cəfərli imza vərəqələri və digər zəruri seçki sənədlərini 26.07.2024-cü il tarixdə dairə seçki komissiyasına təqdim etmişdir. Dairə seçki komissiyasının nəzdində yaradılmış işçi qrupunda təqdim edilmiş seçki sənədləri və imza vərəqələri nəzərdən keçirilərkən müəyyən edilmişdir ki, bir neçə imza vərəqəsində və seçki sənədində qəsdən buraxılmayan səhvlər mövcuddur. Bununla əlaqədar F.N.Cəfərli və səlahiyyətli nümayəndəsi Abdulnasir Şahlar oğlu Əliyev 28.07.2024-cü il tarixdə dairə seçki komissiyasına dəvət olunmuş, həmin səhvlər aradan qaldırılmışdır.

Nəhayət, təqdim edilən izahatlardan o da məlum olur ki, 28.07.2024-cü il tarixdə dairə seçki komissiyasında olarkən F.N.Cəfərlinin dairə seçki komissiyasının sədrindən namizədliyinin qeydə alınması məsələsinə qısa müddətdə baxılmasına dair xahişinə cavab olaraq dairə seçki komissiyasının sədri həmin məsələyə 30.07.2024-cü il saat 12:00 - 13:00 aralığında baxılacağını bildirmişdir. Lakin nə F.N.Cəfərli, nə də onun səlahiyyətli nümayəndəsi həmin iclasa gəlməmişdir.

Beləliklə, aparılan tam və hərtərəfli araşdırma göstərdi ki, F.N.Cəfərlinin şikayətində göstərdiyi namizədliyin qeydə alınması ilə bağlı məsələyə baxılarkən dairə seçki komissiyasının iclasına dəvət olunmadığına, eləcə də seçki sənədlərində aşkar edilmiş qəsdən buraxılmayan səhvlərin aradan qaldırılması üçün ona şərait yaradılmadığına dair iddiaları öz təsdiqini tapmır. Əksinə, dairə seçki komissiyası imza vərəqələri və digər seçki sənədlərində aşkar edilmiş qəsdən buraxılmayan səhvlərin aradan qaldırılması üçün zəruri addımlar atmışdır, yəni namizəd və onun səlahiyyətli nümayəndəsi təqdim olunmuş sənədlərin yoxlanılması prosesində iştirak etmiş və qeyd edilən sənədlərdə imza atmaq yolu ilə mövcud çatışmazlıqlar aradan qaldırılmışdır.

Göstərilənlərə əsasən F.N.Cəfərlinin 31 iyul 2024-cü il tarixli 5 saylı şikayəti əsassız olduğundan təmin edilməməli, onun namizədliyinin qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 30 iyul 2024-cü il tarixli 17/49 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 58-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci və 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 32 saylı Suraxanı üçüncü seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Cəfərli Fikrət Novruz oğlunun 31 iyul 2024-cü il tarixli 5 saylı şikayəti əsassız olduğundan təmin edilməsin, həmin dairə seçki komissiyasının 30 iyul 2024-cü il tarixli 17/49 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*03.08.2024*

## QƏRAR № 26/120

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 2 avqust 2024-cü il tarixli 09 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 25 saylı Nizami ikinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş İsmayılov Nəriman İlqar oğlunun adından 2 avqust 2024-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edilərək, namizəd kimi qeydə alınmadan imtinaya dair dairə seçki komissiyasının 29 iyul 2024-cü il tarixli 18/59 saylı qərarı mübahisələndirilmiş, həmin qərarın ləğv olunması və namizədliyin qeydə alınması barədə qərar qəbul edilməsi xahiş edilmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələbinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərkən müraciətin imzalanmadığı müəyyən edilərək, onun üzərində qeyd olunmuş ünvana geri göndərilməsi barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Belə ki, Seçki Məcəlləsinin 112.5.11-ci maddəsinə görə, şikayət şikayətçi tərəfindən imzalanmalıdır.

Seçki Məcəlləsinin 112-1.5.3-cü maddəsinə əsasən, şikayət həmin Məcəllə ilə müəyyən edilmiş qaydaların pozulması ilə daxil olmuşdursa, şikayət onu təqdim edən şəxsə geri göndərilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112.5.11-ci, 112-1.5.3-cü maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 2-ci hissəsinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 25 saylı Nizami ikinci seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş İsmayılov Nəriman İlqar oğlunun adından Mərkəzi Seçki Komissiyasına daxil olmuş 2 avqust 2024-cü il tarixli 09 saylı müraciət imzalanmadığından geri göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*03.08.2024*



# Milli Məclisə seçkilərə 28 gün qaldı

# Seçki kampaniyasının ilkin mərhələsi uğurla başa çatdı

## 881 nəfərin deputatlığa namizədliyi qeydə alındı

**Növbədənkənar parlament seçkilərinə hazırlıq Mərkəzi Seçki Komissiyasının təsdiqlədiyi təqvim planı üzrə davam edir. Artıq avqustun 2-də namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin dairə seçki komissiyasına təqdim edilməsi ilə bağlı müəyyən edilmiş müddət başa çatıb. Bununla da seçki kampaniyasının ilkin mərhələsi uğurla yekunlaşıb.**



### Seçkilərdə iştirak üçün 1508 nəfər müraciət edib

Xatırladaq ki, namizədin qeydə alınması üçün seçki sənədlərinin dairə seçki komissiyasına təqdim edilməsi iyulun 13-dən başlamışdı. Bununla bağlı müəyyən edilmiş müddət avqustun 2-si saat 18:00-dək davam etmişdi.

Bu müddətdə Milli Məclisə növbədənkənar seçkilərdə iştirak üçün 1508 nəfər müraciət edib. Bunu MSK-nın dünən keçirilən iclasında MSK sədri Məzahir Pənahov bildirib. MSK sədri deyib ki, müraciət edənlərdən 1462 nəfərin namizədliyinin irəli sürülməsi təsdiqlənib. 1191 nəfər imza vərəqələrini qaytarıb, 881 nəfərin deputatlığa namizədliyi qeydə alınıb.

### İndiyədək 14506 nəfər yerli, 99 nəfər beynəlxalq müşahidəçi qeydiyyatdan keçib

Seçkilərin demokratik keçirilməsini şərtləndirən amillərlən biri də müşahidənin aparılmasıdır. Respublikamızın seçki qanunvericiliyi həm aktiv seçki hüququna malik Azərbaycan vətəndaşlarına, həm də beynəlxalq müşahidəçilərə bununla bağlı geniş imkanlar yaradır.

MSK-nın dünən keçirilən iclasında bildirilib ki, Milli Məclisə sentyabrın 1-də keçiriləcək seçkilərlə əlaqədar indiyə qədər 14 min 506 nəfər yerli müşahidəçi akkreditasiyadan keçib.

MSK sədri Məzahir Pənahov qeyd edib ki, bu müşahidəçilərdən 5477 nəfəri Mərkəzi Seçki Komissiyasında, 9029-u isə dairə seçki komissiyalarında qeydiyyatdan keçib.

Eyni zamanda seçkiləri müşahidə etmək üçün 8 beynəlxalq qurumdan və 26 ölkədən 99 nəfər akkreditə olunub.

### Seçkiqabağı təşviqat avqustun 9-dan başlayacaq

Seçki kampaniyalarının əsas mərhələlərindən biri isə namizədlərin seçkiqabağı təşviqatının həyata keçirilməsidir. Seçki kampaniyasının bu mərhələsində qeydə alınmış namizədlər seçicilərin dəstəyini qazanmaq üçün təşviqat və təbliğatla məşğul olurlar. Bu isə seçkidə qalib gəlmək üçün olduqca vacib məsələdir.

Respublikamızda seçkiqabağı təşviqatın aparılması səsvermə gününə 23 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır. Beləliklə, sentyabrın 1-nə təyin edilmiş parlament seçkilərində seçkiqabağı təşviqatın aparılması avqustun 9-da başlayacaq, avqustun 31-i saat 08:00-da dayandırılacaq. Seçkiqabağı təşviqat qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri tərəfindən aparılır.

Qarşıdan gələn növbədənkənar parlament seçkilərində seçkiqabağı təşviqat aparmaq məqsədilə ölkə üzrə birmandatlı seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına ödənişsiz efir vaxtı və dərc üçün yer ayıracaq media subyektlərinin adı məlumdur. Eyni zamanda Milli Məclisə növbədənkənar seçkilərdə seçkiqabağı təşviqatın media subyektlərində ödənişli əsaslarla da aparılması mümkündür.

Milli Məclisə sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkilər respublikamızda müstəqillik dövründə keçirilən sayca 7-ci parlament seçkiləri olacaq. Eləcə də bu, müstəqillik illərində işğaldan azad edilmiş ərazilərimizdə təşkil edilən ilk parlament seçkiləri kimi tarixə düşəcək. Bütün bunlarla yanaşı, növbədənkənar parlament seçkiləri Azərbaycanın demokratik inkişafının növbəti təcəssümünə çevriləcək.

*Rəşad CƏFƏRLİ, "Azərbaycan"*

# Azərbaycanın təkmil seçki sistemi mövcuddur

## Parlament seçkiləri demokratik cəmiyyətimizin möhkəmliyini bir daha nümayiş etdirəcək

**"Konstitusiyamızın 56-cı maddəsinin 1-ci bəndində Azərbaycan Respublikası vətəndaşlarına dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ verilir. Seçkilərin keçirilməsi xalqa onu təmsil edəcək səlahiyyətli nümayəndələrini seçmək hüququ verir. Konstitusiyanın 4-cü maddəsinə əsasən, xalqın seçdiyi nümayəndələrindən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur. Bu baxımdan konstitusiyamız xalqa seçki yolu ilə ölkə rəhbərini, Milli Məclisə deputatları, yerli özünüidarəetmə orqanlarını seçmək və referendumlarda iştirak etmək hüququ verir".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Azər Badamov deyib. O qeyd edib ki, müstəqillik illərində Azərbaycanın seçki sistemi təkmilləşdirilib və hər bir vətəndaşa ölkədəki siyasi proseslərdə yaxından iştirak etmək hüququ verilib: "Dövlətimiz seçkilərin keçirilməsi və vətəndaşların seçkilərdə iştirakı üçün bütün şərait yaradıb. Ölkəmiz seçkilərin keçirilməsi ilə bağlı böyük nailiyyətlərə imza atıb. Belə ki, şəffaf seçkilərin keçirilməsi üçün ölkəmizin hər yerində seçki məntəqələri yaradılıb. Seçki məntəqələri elektrik generatorlarından başlamış bütün avadanlıqlar və ləvazimatlarla təmin olunur. Böyük xoşbəxtlikdir ki, bu gün seçki məntəqələrimiz işğaldan azad olunmuş ərazilərdə də yaradılmışdır. 30 ildə keçmiş məcburi köçkünlərimiz öz ata yurdlarında səs vermək hüququndan məhrum olunmuşdu. Artıq bu problem də öz həllini tapıb və işğaldan azad olunmuş ərazilərdə onlarla seçki məntəqəsi fəaliyyət göstərməyə başlayıb. İşğaldan azad olunmuş ərazilərə qayıtmış səsvermə hüququ olan bütün vətəndaşlarımız doğma yurdlarında seçkilərdə iştirak etmək imkanı əldə ediblər".

Deputat vurğulayıb ki, dövlət seçkilərin maksimum şəffaf keçirilməsi üçün bütün imkanları yaradıb. Seçki Məcəlləsi seçki prosesini tənzimləyir və seçkidə iştirak edən hər bir şəxsə siyasi mübarizəni aparmaq üçün bərabər imkanlar verir. Seçkilərin demokratikliyini müşahidə etmək üçün beynəlxalq təşkilatların və dövlətlərin nümayəndələri ölkəmizə dəvət olunurlar. Amma təəssüf ki, bəzi beynəlxalq təşkilatlar MDB-yə üzv ölkələrdə keçirilən seçkilərə ikili standartlardan yanaşır və rəylərini qabaqcadan hazırlayaraq gəlirlər. "Məsələn, ATƏT-in seçkilərdə müşahidə missiyası həmişə seçkilər haqqında mənfi rəy yaratmağa çalışıb. Buna baxmayaraq, biz ATƏT-in müşahidə missiyasını yenidən dəvət edirik və seçkiləri necə şəffaf keçirdiyimizi onlara yenə nümayiş etdiririk. Adətən "exit poll"un müşahidələri ilə seçkilərin nəticələrinin üst-üstə düşməsi seçkilərin şəffaflığını sübut edən göstəricidir. Azərbaycanda səsvermə günü də hər bir vətəndaşa azad şəkildə öz iradəsini nümayiş etdirməyə şərait yaradılır".

2024-cü ilin Azərbaycanda seçkilər ili olduğunu deyən A.Badamov xatırladıb ki, xalqımız fevralda prezident seçkisində iştirak edib, 1 sentyabrda parlament seçkilərində, dekabrda isə bələdiyyə seçkilərində iştirak edəcək. Seçkinin hansı orqana keçirilməsindən asılı olmayaraq, hər bir orqanın dövlətin idarə olunmasında, ölkənin suverenliyinin möhkəmlənməsində, inkişafında və xalqın rifahının yaxşılaşmasında xüsusi rolu var. "Xalqımız fevral ayında keçirilən prezident seçkilərində böyük səs çoxluğu ilə cənab İlham Əliyevi dövlət başçısı seçdi. Bu, ölkəmizin daha da güclənməsi və inkişafı üçün xalqın dəstəyi idi", - deyə o əlavə edib.

Deputat hesab edir ki, Azərbaycan xalqı qarşıdan gələn seçkilərdə də fəallıq nümayiş etdirəcək vətəndaşlarmız səsvermə hüququndan istifadə etməklə dünyaya demokratik cəmiyyətimizin möhkəmliyini bir daha göstərəcək.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*




# Seçkilər yaxınlaşdıqca fəallıq da yüksəlir

**Ölkəmizin həyatında mühüm əhəmiyyət kəsb edən növbədənkənar parlament seçkilərinə bir aydan da az vaxt qalır. Hazırda seçki məntəqələrində gərgin hazırlıq işləri gedir. Demək olar ki, seçicilərin sərbəst, şəffaf şəraitdə istədikləri namizədə səs vermələri üçün hər cür şərait yaradılır.**



Gəncədə fəaliyyət göstərən 38 saylı Gəncə I seçki dairəsində də hazırlıq işləri mütəşəkkilliklə davam etdirilir. Dairə seçki komissiyasının sədri İbrahim Cəfərovla söhbət zamanı məlum oldu ki, sentyabrın 1-də Milli Məclisə keçiriləcək növbədənkənar seçkilərə hazırlıq işləri yüksək səviyyədə görülür. Dairəni əhatə edən 38 seçki məntəqəsinin hamısında seçicilərin istədikləri namizədə sərbəst şəkildə səs vermələri üçün lazımi şərait yaradılmışdır. Seçkilərə 5 gün qalmış isə daha 1 qapalı seçki məntəqəsi yaradılacaqdır. Ümumilikdə seçki dairəsini əhatə edən məntəqələrdə qeydə alınan 52 mindən artıq seçicinin sərbəst şəkildə öz iradələrinə uyğun iştirakı təmin ediləcəkdir.

Onu da öyrəndik ki, seçki məntəqələrinin hamısında təmir işləri aparılmış, məntəqələr lazımi avadanlıqlarla, rabitə və digər texniki vasitələrlə, eləcə də seçkilərin keçirilməsi üçün təlimatlarla təmin edilmişdir. Səsvermənin gedişini izləmək üçün 13 seçki məntəqəsində veb-kamera da quraşdırılmışdır. Seçkiqabağı təşviqatın aparılması, habelə təşviqat materiallarının lövhələrdə yerləşdirilməsi üçün məntəqələrin ərazilərində müvafiq yerlər də ayrılmışdır. Bundan başqa, məntəqə seçki komissiyasının sədrlərinin Mərkəzi Seçki Komissiyasının təşkil etdiyi kurslarda iştirakı təmin edilmişdir.

Dairə seçki komissiyasının sədri onu da əlavə etdi ki, əvvəlki seçkilərdən fərqli olaraq bu seçkilərdə həm ilk dəfə səs verənlərin, həm də yaşı 80-ni keçmiş insanların sayında artım qeydə alınmışdır. Belə ki, sentyabrın 1-də Milli Məclisə keçiriləcək seçkilərdə 1000 nəfərdən çox ilk dəfə səs verənlər, 500 nəfərdən artıq isə yaşı 80-ni ötmüş seçici qeydə alınmışdır.

Dairəni əhatə edən seçki məntəqələrinin əksəriyyətində hərəkəti məhdud olan seçicilər üçün panduslar quraşdırılmış, seçkilərin mütəşəkkil keçməsi üçün bütün seçki məntəqələri elektrik generatorları ilə təmin edilmişdir. Hazırda seçici siyahılarında dəqiqləşdirmə aparılır.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

# Parlament seçkiləri ilə bağlı proses demokratik və şəffaf keçir

**"Azərbaycan Respublikası Milli Məclisinə 1 sentyabr tarixinə təyin edilmiş növbədənkənar parlament seçkiləri ərəfəsindəki vəziyyət tam azad, sərbəst, bərabər və demokratikdir. Bütün proses Konstitusiyaya və qanunlarımıza uyğun həyata keçirilir. Hər şeydən əvvəl hamı üçün bərabər imkanlar yaradılıb".**



Milli Məclisin deputatı Musa Qasımlı "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, ölkə Konstitusiyasının 85-ci maddəsinin 1-ci hissəsində seçkilərdə iştirak etmək hüququna malik hər bir vətəndaşın Azərbaycan Respublikasının Milli Məclisinin deputatı seçilmək hüququna malik olduğu qeyd edilib. Deputatlığa namizədliyin irəli sürülməsi qaydaları aydındır. Vətəndaş öz namizədliyini irəli sürə və ya namizədlik seçicilərin təşəbbüs qrupu, siyasi partiya və siyasi partiyalar bloku tərəfindən irəli sürülə bilər. "İndiyədək ölkəmizdə olan siyasi partiyaların biri istisna olmaqla, hamısı bu seçki prosesində iştirak ediblər. Belə vəziyyət seçki öncəsi şəraitin azad, ədalətli, demokratik, şəffaf və bərabərhüquqlu olduğunu göstərir. Ayrı-ayrı şəxslər, siyasi partiyalar, müstəqil olanlar öz güclərini sınayırlar. Ərizələrin dairə seçki komissiyalarına təqdim edilməsi, onlara baxılması, bundan sonra namizədin qeydə alınması, imza vərəqələrinin verilməsi tam şəffaf və azad şəkildə həyata keçirilir. Artıq namizədlərin nümayəndələri və müxtəlif şəxslər qanunla müəyyən edilmiş qaydada imza vərəqələrini toplayıb dairə seçki komissiyalarına təqdim ediblər", - deyə müsahibimiz əlavə edib.

M.Qasımlı qeyd edib ki, imza toplanmasında dövlət orqanları, bələdiyyə qurumları və mülkiyyət formasından asılı olmayaraq, hüquqi şəxslər iştirak edə bilməzlər. Digər müsbət tərəf isə imzaların toplanması üçün icazə verilən yerlərin də əvvəldən müəyyənləşdirilməsidir. Bunlar tədris müəssisələri, yaşayış evləri və seçkiqabağı təşviqatın aparılmasının qadağan edilmədiyi digər yerlər ola bilər. Seçkiöncəsi şəraiti səciyyələndirən ən mühüm amillərdən biri də Mərkəzi Seçki Komissiyasının (MSK) mükəmməl təqvim planı hazırlamasıdır. Nəyin nə zaman edilməsi planda aydın şəkildə göstərilib. Bundan başqa, MSK namizədlər üçün yaddaş kitabçası hazırlayıb ki, bu da hər bir namizədin işini asanlaşdırır. Deputat vurğulayıb ki, seçkiöncəsi vəziyyətin azad, ədalətli, şəffaf və demokratik olmasını şərtləndirən amillərdən biri də bu məsələlərin mətbuatda öz əksini tapmasıdır: "Seçki prosesini demokratik edən amillərdən biri müşahidəçilərdir. Hər bir namizəd və ya siyasi partiya məntəqələrə öz müşahidəçilərini təyin edir və onlar öz vəkillərini müəyyənləşdirirlər. Seçkiöncəsi şəraiti qiymətləndirməkdən ötrü ölkəmizə xarici müşahidəçilər də dəvət olunurlar. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun nümayəndələrinin ölkəmizə gəlməsi seçkilərə beynəlxalq marağı göstərməklə bərabər Azərbaycanın bu sahədə əməkdaşlığa hazır olduğunu göstərir".

M.Qasımlı bildirib ki, bütün proseslər ölkəmizdə sentyabrın 1-də seçkilərin azad, ədalətli və demokratik keçiriləcəyini göstərir. Azərbaycan seçiciləri öz iradəsini müstəqil şəkildə ifadə edəcək və seçki məntəqələrinə gedərək istədikləri namizədə səs verəcəklər. Bu seçkilər ölkəmizin həyatında yeni mərhələnin başlandığı zamanda keçirilir, ona görə də tarixi əhəmiyyət daşıyır.

*Ə.QARDAŞXANOVA, "Azərbaycan"*

# Heydər Əliyev ideyalarını yaşadan Azərbaycan

## 1969-cu il 5 avqust plenumunda əsas diqqət güclü iqtisadiyyatın yaradılmasına və sağlam milli kadrların yetişdirilməsinə yönəldilmişdi

**Azərbaycan tarixində ən güclü inkişaf mərhələsi Ümummilli Lider Heydər Əliyevin respublikaya siyasi hakimiyyətə gəldiyi gündən başlayır. 1969-cu il ölkəmizin ən yeni tarixində dönüş ili oldu.**



Respublikanın dinamik inkişafının təmin edilməsinə dair kompleks proqramlar işlənib hazırlandı. Ulu Öndər bu illər ərzində milli inkişaf yolunu dərin elmi əsaslarla müəyyənləşdirdi, daim xalqını, vətənini düşündü, Azərbaycanın ən mürəkkəb məqamlarında onu üzləşdiyi faciələrdən, çətinliklərdən xilas etdi. İlk günlərdən aydın oldu ki, Azərbaycan xalqı artıq əsl liderini tapmışdır. 1969-cu ildən bəri Azərbaycan tarixinin bütün dövrü Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Böyük şəxsiyyət ölkəsinin bügünkü və sabahkı dövrünün möhkəm bünövrəsini yarada bilmişdir.

Ulu Öndərin siyasi lider kimi xoşbəxtliyi ondadır ki, inkişaf dövrü ifadəsi qarşısındakı ən parlaq epitetləri indi onun mənəvi-siyasi irsinin davamçısı - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlətimizə rəhbərlik etdiyi dövrə aid edilir. Ümummilli Liderin formalaşdırdığı möhkəm təməllər üzərində Azərbaycan daha da yüksəlib, tarixi inkişaf yolunda əsrlərə bərabər uğurlarla irəliləyib. Prezident İlham Əliyev Ümummilli Liderin zamanında obyektiv səbəblər, çətin şərait üzündən gerçəkləşməmiş arzularını da reallaşdırıb. Torpaqlarımızın azadlığına, ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə nail olub. Əsrlərlə xalqımızın başının bəlasına çevrilmiş erməni məsələsinə birdəfəlik son qoymağı bacarıb. Azərbaycanı bütün meyarlar üzrə - həm sosial-iqtisadi inkişaf göstəricilərinə, həm beynəlxalq nüfuzuna, həm regional və qlobal proseslərə təsir imkanlarına görə tarixinin ən qüdrətli inkişaf mərhələsinə yetirib.

Hazırda Heydər Əliyevin ideyalarından, bu ideyalar işığında qazandığımız naliyyətlərdən güc alaraq önümüzdəki ali məqsədlərə doğru irəliləyirik.

### Tarixin ən qüdrətli Azərbaycanına doğru yol

Müdriklərdən birinin söylədiyi kimi, ən böyük məsafələr də bir addımdan başlanır. Bu, tarixdə də belədir. Xalqların həyatını dəyişmiş böyük proseslər bəzən öz başlanğıcını bir yenilikdən, təqvimdəki hansısa gündən götürür və o tarix sonralar həmin xalqların taleyinə çevrilir.

1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın plenumu keçirilir. 10 ildən artıq müddətdə respublikaya rəhbərlik etmiş ozamankı birinci katib Vəli Axundov səhhəti ilə bağlı vəzifəsindən istefa verir və elmi işlə məşğul olmaq arzusunu bildirir. Plenumda çıxış edən keçmiş Sov.İKP MK-nın katibi İ.V.Kapitonov son illərdə respublikanın bütün ittifaq göstəricilərindən geridə qaldığını, vəziyyətin narahatlıq doğurduğunu xüsusi vurğulayır. Həmin mötəbər məclisdə Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə namizədliyi irəli sürülür və yekdilliklə dəstəklənir. Bununla da Azərbaycanda milli ideallara bağlı bir insanın rəhbərliyə gəlişi respublikanın tarixində yeni siyasi mərhələnin başlanğıcı olur.

1969-cu il avqustun 5-də Bakıda Azərbaycan KP MK-nin növbəti plenumu keçirilir. Bu plenum ölkəninin yeni rəhbərinin rəsmi dövlət siyasəti səviyyəsində ortaya çıxması, yeni strateji dövrdə Azərbaycan qarşısında duran əsas hədəflərin müəyyənləşdirilməsi, onlara çatmaq üçün yerinə yetirilən vəzifələrin konkretləşdirilərək təqdim edilməsi idi. Tarixin ən qüdrətli Azərbaycanına doğru yol öz başlanğıcını o günlərdən götürür. Həmin siyasətin başlıca məramı güclü dövlət, güclü iqtisadiyyat yaratmaq, sağlam milli kadrlar yetişdirmək idi.

### İşi kadrlar həll edirlər

Plenumda yeni təyin olunmuş birinci katib yaranmış vəziyyətdən çıxmaq üçün hansı tədbirlərin görülməsinin lazım gəldiyini, respublikada nə kimi çətinliklərin olduğunu dəqiq şəkildə göstərən proqram xarakterli böyük bir nitq söylədi. Ulu Öndər çox açıq və sərt şəkildə kadrların seçilməsində ciddi qüsurlara yol verildiyini qeyd etdi, iqtisadiyyatda hərc-mərcliyin, özbaşınalığın hökm sürdüyünü bildirdi. Ümummilli Liderin plenumdakı nitqi kadr seçiminə necə böyük məsuliyyətlə yanaşdığını bir daha təsdiqlədi. "Biz ayrı-ayrı vəzifəli şəxslərin davranışında özünü büruzə verən nalayiq hallara, pozğunluq təzahürlərinə göz yuma bilmərik. Mənəviyyat, əxlaq bütün işimizə nüfuz etməlidir. Kadrları açıq-aşkar, kütlələrin gözü qabağında seçmək, onlar haqqında kollektivin, adamların, iş yoldaşlarının rəyini nəzərə almaq lazımdır. Yalnız belə olduqda kadrların seçilməsi və yerləşdirilməsindəki bir çox səhvlərin qarşısını almaq, həmin sahədə işimizin səviyyəsini xeyli yüksəltmək olar", - deyə Heydər Əliyev bütün sahələrdə mövcud olan nöqsanlar barədə fikrini bildirdi və bu, o vaxt çoxlarında təəccüb doğurdu.

Ölkənin yeni rəhbərinin kadr məsələsinə belə xüsusi diqqət yetirməsi heç də təsadüfi deyildi. İlk növbədə ona görə ki, həmin dövrdə Azərbaycanda mövcud olan problemlərin mühüm bir qismi insan amilindən irəli gəlirdi. Digər tərəfdən isə Ümummilli Lider Azərbaycanı qısa müddətdə irəli aparmaq üçün çox böyük vəzifələr müəyyənləşdirmişdi və bu vəzifələri lazımi şəkildə yerinə yetirməkdən ötrü fərqli templə çalışmağa qabil, yüksək əzmkarlığa, peşəkar, mənəvi keyfiyyətlərə malik kadrlara ehtiyac vardı.

Onu da qeyd edək ki, respublikanın rəhbəri kimi vəzifəsinin icrasına yeni başlamış Heydər Əliyevin hər bir sahədə mövcud nöqsanlarla bağlı fikirlərini açıq bildirməsi çoxlarında heyrət doğururdu. Çünki Sovet İttifaqı totalitar mahiyyətli cəmiyyət idi və burada qüsurlar barədə olduğu kimi danışılmırdı, onları ört-basdır etməyi üstün tuturdular. Bu problemlər rejimin mahiyyəti ilə bilavasitə bağlı olduğundan açıq danışmaq ehtiyatsız addım sayılırdı. Digər tərəfdən, bu çatışmazlıqları, nöqsanları məhz Heydər Əliyevin dilə gətirməsi isə xüsusilə riskli görünürdü. Ona görə ki, bu çıxışı uzun illər xüsusi xidmət orqanlarında çalışmış ali rütbəli məmur - ölkədə və ümumən idarəetmə sistemindəki vəziyyət haqqında ən dolğun məlumatlara malik şəxs edirdi. İkinci tərəfdən Azərbaycana rəhbərliyə yenicə başlamış dövlət xadiminin bu cəsarətli nitqinin ölkə hüdudlarından kənarda da böyük ictimai diqqət, reaksiyalar doğuracağı əvvəlcədən bəlli idi. Gözlənildiyi kimi də oldu. Yeni rəhbərin o vaxta qədər misli görünməyən cəsarətli, kəskin mövqeyindən, bəzi sovet gerçəkliyinə ciddi, tənqidi, realist münasibətindən nəinki Azərbaycanda və keçmiş ittifaq respublikalarında, hətta xarici radiostansiyalarda, dünyanın mötəbər qəzet və jurnallarında da söhbət açılırdı. Hətta SSRİ-nin ali rəhbəri, Sov.İKP MK-nın Baş katibi L.İ.Brejnev də bununla bağlı narahatlığını Heydər Əliyevin diqqətinə çatdırmışdı. Amma Ümummilli Lider dediyi sözlərin, tutduğu mövqenin, ən əsası isə Azərbaycanın taleyi ilə bağlı onun üzərinə düşən tarixi missiyanın fərqində idi və bilirdi ki, problemlərin tam həlli hər bir reallığı çəkinmədən öz adı ilə çağırmaqdan başlanır.

### "Qoy ədalət zəfər çalsın!"

Ümummilli Lider 5 avqust plenumundan sonrakı illərdə də, təbii ki, dövrün müəyyən qaydaları çərçivəsindən kənara çıxmayaraq öz siyasi xəttini yeridir, çəkinmədən sözünü deyir, fikirlərini sərbəst açıqlayır, mövcud problemlərin aradan qaldırılması, zəruri vəzifələrin yerinə yetirilməsi üçün qətiyyətli addımlar atırdı. Məhz o zaman Heydər Əliyev yeni iş tərzinə malik siyasi lider kimi təkcə ittifaq miqyasında deyil, həm də bütün dünyada tanındı. Ulu Öndər 1981-ci ilin 18 noyabrında "Literaturnaya qazeta"ya verdiyi məşhur "Qoy ədalət zəfər çalsın!" başlıqlı müsahibəsində o dövrdə respublikanın həyatı ilə bağlı ən müxtəlif məsələlərə toxunaraq demişdi: "Kommunist Partiyası MK-sının avqust plenumundan, respublikanın həyatındakı ciddi nöqsanları Azərbaycan zəhmətkeşlərinə düzgün və açıq bildirən bu plenumdan düz on gün sonra burjua mətbuatı hay-küy qaldırmış və cinayət xarakterli sensasiyaların sorağında dayanmışdı.

Qeyd etmək istəyirəm ki, biz "qanunçuluq" deyəndə cinayət məcəlləsindən çox cəmiyyətimizin əxlaq kodeksini nəzərdə tuturuq. Özü də bu baxımdan hüquq pozuntuları, onların profilaktikası bizim üçün təkcə hüquqa aid məsələ deyildir. Bu, sosial və mənəvi məsələdir, çünki söhbət ən əvvəl insan uğrunda mübarizədən, sovet adamının hüquqlarına hörmətdən, ləyaqət və şərəfinin qorunmasından, onda ən yaxşı vətəndaşlıq keyfiyyətləri, yüksək əxlaqi prinsiplərin tərbiyə edilməsindən gedir. Azərbaycan partiya təşkilatının işi məhz belə bir mövqeyə əsaslanır və məhz bu mövqe böyük əksəriyyət, həyatda, əməkdə yüksək əxlaq prinsiplərini rəhbər tutan zəhmətkeşlər tərəfindən qızğın surətdə bəyənilmişdir... Biz xalqa kömək edib onda haqqa-ədalətə inam oyatmalı idik... Ağır, çətin proses idi. Mən "idi" sözünü heç də ona görə demirəm ki, indi vəziyyət idealdır, ona görə deyirəm ki, bu prosesin pozulmazlığı real həqiqətə çevrilmişdir".

### İntibah

Məhz belə prinsipial, qətiyyətli mövqe sayəsində Heydər Əliyev çox qısa zaman ərzində Azərbaycanın ictimai-siyasi həyatında ciddi dönüş yaratmağa nail oldu. Kadrların düzgün seçimi, onlara qarşı tələbkarlığın artırılması işin effektivliyini yüksəltdi. Ümummilli Liderin gərgin zəhməti, fədakarlığı, eyni zamanda şəxsi nüfuzu sayəsində bir-birinin ardınca qəbul edilən inkişaf proqramları sayəsində Azərbaycan böyük bir quruculuq meydanına çevrildi. Respublikada iri müasir maşınqayırma, kimya, neft kimyası və elektron sənayesi, əlvan və qara metallurgiya, yüngül, yeyinti və emal sənayesi müəssisələri tikildi, habelə elektroenergetika, nəqliyyat kompleksi ciddi şəkildə inkişaf etməyə başladı. 1980-ci ilin göstəricilərinə görə, sənayenin əsas istehsal fondlarının dəyəri 1969-cu ildəki ilə müqayisədə iki dəfə artırıldı. Bu illər ərzində 15 yeni iri maşınqayırma müəssisəsi istifadəyə verildi, 12 müəssisədə istehsal gücü nəzərəçarpacaq dərəcədə yüksək səviyyəyə çatdırıldı, neft maşınqayırması zavodları modernləşdirildi. Azərbaycanda sənaye istehsalı yüksəldi. 1976-cı ildən etibarən respublika sənaye istehsalının artım sürətinə görə ittifaq üzrə ön sıralara çıxdı. Beləliklə, Azərbaycan geri qalmış aqrar respublikadan qabaqcıl sənaye ölkəsi mövqeyində qərarlaşdı.

Heydər Əliyev Azərbaycan insanlarının həyat standartlarını dəyişdi, sosial rifahını yüksəltdi. Məhz o illərdən başlayaraq ölkəmizin ucqar əyalətlərində də sosial infrastruktur obyektləri quruldu. Vətəndaşlarımızın maddi durumu yaxşılaşdı, kəndlərimizdə, qəsəbələrimizdə müasir görkəmli evlər, həyətlərdə avtomobillər görünməyə başladı. Yeni qurulan qəsəbələr, iri şəhərlərdə salının böyük yaşayış massivləri hesabına vətəndaşlarımızın mənzil problemləri əsaslı şəkildə həllini tapdı. Kənd təsərrüfatında çalışan zəhmət adamları halal əməklərinin bəhrəsini görməyə başladılar.

Ümummilli Lider o dövrün sənayeləşmə çağırışlarını, yüksək ali təhsilə malik peşəkar kadrlara olan tələbatı həssaslıqla nəzərə alaraq təhsili, biliyi cəmiyyət həyatında başlıca meyara çevirdi. Cəmiyyətdə ədaləti bərpa edərək ali məktəblərin qapılarını bilikdən başqa güvənc yeri olmayan sadə zəhmətkeş balalarının üzünə açdı. O illərdə tələbə adı qazanaraq yüksək bilik və bacarıqlar qazanan, həyatda öz yerini tapan minlərlə vətəndaşımız buna görə məhz Heydər Əliyev şəxsiyyətinə minnətdardır. Ulu Öndər təhsilin hər kəsə əlçatan olması üçün Bakıda və ölkəmizin regionlarında yeni ali təhsil müəssisələri yaratdı. Azərbaycanın xüsusi ixtisaslar üzrə peşəkar kadrlara olan ehtiyacını nəzərə alaraq minlərlə gəncimizi keçmiş ittifaqın ən nüfuzlu ali təhsil müəssisələrinə göndərdi. Bununla ölkənin peşəkar milli kadr bazasını formalaşdırdı.

Ümummilli Lider elmə, sənətə, ədəbiyyata, yaradıcı adamlara diqqət və qayğısı ilə ölkədə bütün sahələr üzrə mədəni intibahın əsasını qoydu. 5 avqust plenumunun mühüm nəticəsi kimi xalqın milli-mənəvi ruhu özünə qaytarıldı. Respublikanın yeni rəhbərinin mənəvi dəyərlərimizə sevgisi, ölkəmizin tarixi şəxsiyyətlərinə, yaradıcı adamlarına münasibətilə hər kəs üçün parlaq nümunə yaratdı. Azərbaycanın vətənpərvər ziyalılarını cəsarətli mövqelərinə görə sovet rəhbərliyinin təzyiqlərindən qətiyyətlə qorudu, onların sıxışdırılmasının qarşısını aldı. Heydər Əliyev çox böyük təzyiqlərə, maneələrə rəğmən, 1978-ci ildə Azərbaycan dilini dövlət dili kimi Konstitusiyada təsbit etməyə də nail oldu.

Görkəmli siyasi xadim Nəriman Nərimanovun bütün əzəməti ilə Azərbaycan xalqına və mədəniyyətinə qaytarılmasında Heydər Əliyevin müstəsna xidmətləri xüsusi qeyd edilməlidir. O dövrün ziyalıları, alimləri xatirələrində yazırlar ki, N.Nərimanov 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra son dərəcə mürəkkəb bir dövrdə Azərbaycan dövlətçiliyini qoruyub saxlayan qeyri-adi siyasi şəxsiyyət kimi Heydər Əliyevin diqqətini cəlb etmişdi. Qeyd edək ki, o zaman Azərbaycanın düşmənlərinin iradəsi ilə Nərimanov siyasi unutqanlığa məruz qalmışdı, millətçi kimi qələmə verilirdi. Bu qara buludları görkəmli şəxsiyyətin üzərindən götürmək üçün respublikanın rəhbəri 1972-ci ilin yazında N.Nərimanovun 100 illik yubileyini keçirir, Bakıda isə ona əzəmətli abidə ucaldılır. Bir müddət sonra "Pravda" qəzetində Heydər Əliyevin N.Nərimanovun həyat və fəaliyyəti haqqında məqaləsi dərc olunur. Daha sonra Nərimanov haqqında çəkilən film ekranlara çıxarılır. 1977-ci ildə böyük rəhbərin səyləri nəticəsində Ulyanovsk şəhərində görkəmli siyasi xadimə abidə ucaldılır. 1982-ci ildə isə Moskvada xatirə lövhəsinin açılışı olur. Bütün bunlar bir cəsarət nümunəsi idi!

Heydər Əliyevi qayğılandıran məsələlərdən biri də milli ədəbiyyatın, dramaturgiyanın və incəsənətin dünyada tanıdılması idi. Həmin ilin aprelində İmadəddin Nəsiminin anadan olmasının 600 illiyinə hazırlıqla bağlı qərar qəbul edildi. Bir il sonra klassikimizin şanlı yubileyi Bakıda və Moskvada keçirildi. 1972-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının yarıməsrlik yubileyi oldu. 1974-cü ildə Azərbaycan teatrının 100 illik yubileyi keçirildi, görkəmli səhnə xadimlərinə fəxri adlar, mükafatlar verildi. 1975-ci ildə Bakıda Səməd Vurğunun ev-muzeyi açıldı. 1980-ci illərdə Xalq artisti Qurban Pirimovun, Hüseynqulu Sarabskinin, Hüseyn Cavidin, Mirzə Şəfi Vazehin 100 illik yubileyləri qeyd edildi, Nizami Gəncəvinin 840, N.Tusinin 780, Aşıq Alının 180 illiyinin bayram edilməsi haqqında qərarlar imzalandı. Görülən bütün bu işlər Azərbaycan xalqına öz ədəbiyyatı və mədəniyyətinin klassiklərini, böyük tarixi şəxsiyyətlərini yaxşı tanımağa, mədəni sərvətlərini və dəyərlərini qoruyub saxlamağa imkan vermişdir.

Bir sözlə, Ümummilli Lider 1969-1982-ci illərdə Azərbaycanın intibahını təmin etdi və bu mərhələni gələcəyin müstəqil Azərbaycanının sarsılmaz bünövrəsinə çevirdi. Müstəqillik dövründə də dövlətimizi zamanın sərt təlatümlərindən qorudu, rəvan inkişaf yoluna çıxardı.

Prezident İlham Əliyevin liderliyi ilə bu gün tarixinin ən qüdrətli mərhələsinə gəlib çatmış Azərbaycan Ümummilli Lider Heydər Əliyevin 1969-cu ilin 5 avqustunda görmək istədiyi doğma Vətəninin reallıqdakı təcəssümüdür. Azərbaycan var olduqca Heydər Əliyev ideyaları da yaşayacaq və inkişaf yollarımıza nur saçacaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## "Heç kimin bizimlə ultimatum dilində danışa bilməməsi üçün ordumuz döyüş hazırlığını və peşəkarlığını daim yüksək səviyyədə saxlamalıdır"

**Avqustun 3-də Müdafiə Nazirliyində 2024-cü ilin birinci yarımilinin yekunlarına dair geniş tərkibli kollegiya iclası keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə videobağlantı formatında keçirilən iclasda nazir müavinləri, qoşun (qüvvə) növü komandanları, baş idarə, idarə, xidmət və müstəqil şöbə rəisləri, hərbi birlik və birləşmə komandirləri, həmçinin xüsusi təyinatlı təhsil müəssisələrinin rəisləri iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Havadarları tərəfindən silahlandırılan Ermənistanın regionda vəziyyəti gərginləşdirmək məqsədilə şərti sərhəddə törətdiyi təxribatlara qarşı bölmələrimiz tərəfindən həyata keçirilən təxirəsalınmaz tədbirlər və mövcud əməliyyat şəraiti təhlil edilib.





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqlar kollegiya iştirakçılarına çatdırılıb.

Dövlət başçısının səsləndirdiyi "Dövlətin nə qədər gücü olsa, nə qədər silahı olsa, nə qədər düzgün hərbi əməliyyatlar planlaşdırılsa da, qələbəni əldə edən əsgərdir, zabitdir" ifadəsini vurğulayan general-polkovnik Z.Həsənov Azərbaycan Ordusunun Ali Baş Komandanının istənilən tapşırığını yüksək peşəkarlıqla icra etməyə qadir olduğunu bildirib.

Nazirliyin rəhbər heyəti geniş məruzələrlə çıxış edib.

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev bu ilin birinci yarımili ərzində qoşunların əməliyyat imkanlarının və qərargahların komanda idarəetmə qabiliyyətlərinin artırılması, mühəndis, kəşfiyyat və digər sahələrdə həyata keçirilən tədbirlər haqqında geniş məruzə ilə çıxış edib, ordu quruculuğu sahəsində aparılan uğurlu islahatların müsbət nəticəsindən danışıb.

General-polkovnik K.Vəliyev Azərbaycan Ordusunun xidməti-döyüş fəaliyyətini təhlil edərək bildirib ki, müxtəlif qoşun növlərinin cəlb olunduğu beynəlxalq və müştərək təlimlərin keçirilməsi ilə hərbi qulluqçuların peşəkarlıq səviyyəsi daha da yüksəldilib.

Sonra müdafiə nazirinin müavini - baş direktor Aqil Qurbanov cari ilin ilk altı ayı ərzində təminat sahəsində görülən işlər, qoşunların yeni silah və texnika ilə təchizatı, şəxsi heyətin psixoloji hazırlığı və hərbi təhsil sahəsində həyata keçirilən tədbirlər barədə məruzə edib.

Baş direktor bildirib ki, dövlət başçısının müvafiq sərəncamlarına uyğun olaraq, hərbi təhsil sahəsində cəlbediciliyin artırılması istiqamətində görülən tədbirlər, o cümlədən respublikamızın 13 şəhərində yaradılmış 17 mərkəz vasitəsilə aparılan maarifləndirmə işləri nəticəsində Milli Müdafiə Universitetinin nəzdində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələrinə müraciətlərin sayı 5 min 500-dən artıq olub. Bu da yüksək keyfiyyətlərə malik namizədlərin seçilməsinə, qoşunların taktiki səviyyədə komplektləşdirilməsi, həmçinin kadr ehtiyatlarının yaradılmasında kəmiyyət və keyfiyyət göstəricilərinin artırılmasına geniş imkan verir.

Qış mövsümünə hazırlıqla bağlı məsələlərə toxunan baş direktor Azərbaycan Ordusunda bu istiqamətdə həyata keçirilən tədbirlərin plana uyğun olaraq, yüksək səviyyədə təşkil edildiyini bildirib.

Daha sonra müdafiə nazirinin müavini - Quru Qoşunları komandanı general-leytenant Hikmət Mirzəyev bölmələrin döyüş qabiliyyətinin artırılması və qoşun xidmətinin təşkili istiqamətində həyata keçirilən tədbirlər barədə məruzə edib.

Müasir silah və texnikanın cəlb edilməsi ilə keçirilən təlim və məşğələlərin intensivliyinin artırıldığı, bölmələrdə döyüş növbətçiliyi və digər xidməti-döyüş fəaliyyətlərin yüksək səviyyədə təşkil edildiyi bildirilib.

İclasda çıxış edən müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin Komandanı vəzifəsini icra edən general-leytenant Namiq İslamzadə HHQ bölmələrində şəxsi heyətin xidməti-döyüş fəaliyyətinin illik hazırlıq planına uyğun daha keyfiyyətli keçirilməsinə xüsusi diqqət yetirildiyini vurğulayıblar.

İclasda Əlahiddə Ümumqoşun Ordu Komandanı general-mayor Kənan Seyidov və digər qoşun (qüvvə) növü komandanları da çıxış edərək birinci yarımilin yekunlarına dair yerinə yetirilən tədbirlər barədə ətraflı məlumat veriblər.

Müşavirənin yekununda çıxış edən müdafiə naziri silahlanmaya yeni qəbul edilən müasir silah və texnikanın düzgün istismarı və döyüşdə effektiv tətbiqinin öyrənilməsinin vacibliyini qeyd edib.

Müddətli həqiqi hərbi xidmətə yeni çağırılan gənc əsgərlərin fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi, onların adaptasiya prosesinə həssaslıqla yanaşılması, eləcə də sağlamlıqlarının daim diqqət mərkəzində saxlanılması ilə bağlı müvafiq göstərişlər verib.

Döyüş növbətçiliyi və gündəlik xidməti fəaliyyət zamanı yanğın və digər təhlükəsizlik qaydalarına əməl edilməsinə, həmçinin hərbi qulluqçuların psixoloji hazırlığına və maarifləndirilməsinə xüsusi diqqət yetirilməsinin vacibliyi vurğulanıb.

Müdafiə naziri növbəti tədris ili bağlı görülən işlərin plana uyğun şəkildə və keyfiyyətli icrasına dair əlavə göstərişlər verib. Azad edilmiş ərazilərdə görülən mühəndis tədbirləri ilə bağlı aidiyyəti şəxslər qarşısında konkret tapşırıqlar qoyulub.

Şəxsi heyətin sosial-məişət şəraitinin və tibbi təminatının yaxşılaşdırılması ilə bağlı görülən işlərin mütəmadi olaraq yoxlanılması və ciddi nəzarətdə saxlanılması barədə müvafiq tapşırıqlar verilib.

Ali Baş Komandanın qeyd etdiyi fikirləri bir daha xatırladan general-polkovnik Z.Həsənov istənilən təxribatlara qarşı hər an hazır olmaq, heç kimin bizimlə diktat və ultimatum dilində danışa bilməməsi üçün Azərbaycan Ordusu döyüş hazırlığını və peşəkarlığını daim yüksək səviyyədə saxlamalıdır deyərək müşavirəyə yekun vurub.

# Qarabağ və Şərqi Zəngəzurda təhlükəsizlik tədbirləri artırılır

**Vətən müharibəsindəki Böyük Zəfərdən və suverenliyimizin tam təmin olunmasından sonra qarşıya qoyulan ən prioritet vəzifələrdən biri işğaldan azad edilmiş ərazilərimizin bərpası və Böyük qayıdışın təmin olunmasıdır.**







Hazırda Böyük qayıdış planına uyğun olaraq azad edilmiş torpaqlarda məskunlaşma prosesi davam edir. İlin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş köçkün yerləşdirilməlidir. Yüzdən çox şəhərin və kəndin baş planları hazırlanıb, təsdiqlənib. Böyük qayıdış proqramının birinci mərhələsi 2026-cı ilin sonunda başa çatdırılacaq və o vaxt 140 min köçkün öz dədə-baba torpaqlarına qayıdacaq. Qürurverici haldır ki, artıq 2036 ailə - 7901 nəfər öz istəyilə dədə-baba yurdlarına qayıdıb.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Qarabağ və Şərqi Zəngəzurda məskunlaşma ilə yanaşı, ərazilərin minalardan təmizlənməsi və təhlükəsizlik tədbirlərinin gücləndirilməsi prosesi də davam edir.

Bu xüsusda Daxili İşlər Nazirliyi tərəfindən axtarış tədbirləri həyata keçirilir və Ermənistan silahlı bölmələrinə aid gizlədilmiş silah-sursatlar, partlamamış mərmilər aşkar edilərək zərərsizləşdirilir. Yəni müharibə qalıqları, təhlükə mənbələrinin aşkarlanıb zərərsizləşdirilməsi prosesi polis əməkdaşları tərəfindən fasiləsiz davam etdirilir.

27 iyul - 2 avqust tarixlərində polis əməkdaşları tərəfindən Xankəndi şəhəri ərazisində 60 avtomat silahı, 3 pulemyot, 21 tapança, 29 tüfəng, 27 gecəgörmə cihazı, 2 dron, 1 stasionar radiostansiya, 1 müşahidə kamerası aşkarlanıb. Bundan başqa, 125 qumbara, 1 qumbaraatan, 63 alışdırıcı, 48 mərmi, 91 süngü-bıçaq, 71 rabitə vasitəsi, 34 dron bombacığı, 190 partlayıcı, 9 trotil, 17 şaşka, 34 detonator, 2 mina, 2 partlayıcı maddə, 2 kiloqram partlayıcı, 126 kiloqram barıt, 11 fişəng, 3 "MUV" partladıcısı, 1 səsgücləndirici, 1 səsboğucu, 611 patron darağı, 75532 ədəd müxtəlif çaplı patron və digər sursatlar zərərsizləşdirilərək götürülüb.

Xocalı rayonunun Əsgəran qəsəbəsi ərazisindən 2 ədəd qumbara, Şuşa rayonu ərazisindən 1 avtomat silahı, 7 ədəd qumbara, Xocavənd rayonu ərazisindən 6 avtomat silahı, 3 tüfəng, 36 qumbara, 6 pulemyot, 1 gecəgörmə cihazı, 1 nişangah, 5 süngü-bıçaq, 12 "UZRQM", 25 patron darağı və 1175 ədəd müxtəlif çaplı patron aşkar edilib.

Göründüyü kimi, düşməndən azad edilmiş ərazilərimizdə hələ də xeyli sayda silah-sursat, partlayıcı maddələr, güllələr, müxtəlif hərbi avadanlıqlar aşkarlanaraq götürülməkdədir.

Dövlət başçısının Qarabağ və Şərqi Zəngəzurun sabitlik adasına çevrilməsi üçün qarşıya qoyduğu tapşırıqlar uğurla icra olunur və 30 ildən sonra öz dədə-baba yurduna qayıdan vətəndaşların burada xoş, firavan yaşamaları üçün təhlükəsizlik tədbirləri gücləndirilir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# "Metsamor AES Türkiyə üçün nüvə təhlükəsidir"

**Ermənistandakı Metsamor AES Türkiyə üçün birbaşa təhlükə mənbəyidir. Türkiyə ilə sərhəddən cəmi 16 kilometr aralıda yerləşən stansiyada baş verəcək hər hansı insident Türkiyənin sərhəd əyalətləri üçün ciddi fəsadlara səbəb ola bilər.**




AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyə mətbuatı Ermənistan hökumətinin hələ 1976-cı ildə inşa etdiyi AES-in ömrünü uzatmaq planlarını şərh edərək yazır.

"Akit" nəşri Türkiyənin Ermənistanla həmsərhəd əyalətlərində son dövrlərdə qeydə alınan xərçəng xəstəliklərinin sayının artmasına diqqət çəkib.

Nəşr qeyd edir: "İstismar müddətinin ən azı 10 il uzadılması planlaşdırılan Metsamor Atom Elektrik Stansiyası İğdır şəhərindən cəmi 30 kilometr, Qars şəhərindən isə 100 kilometr məsafədə yerləşir. Ermənistanda atom elektrik stansiyalarında baş verən hadisələrin mənfi təsirini ilk hiss edən İğdır olacaq".

"TRHaber" resursu Ermənistandakı köhnə AES-i "Çernobıl AES-dən sonra dünyanın ən təhlükəlisi" adlandırıb. Nəşrin məlumatına görə, Metsamor AES Türkiyə üçün nüvə təhlükəsi mənbəyidir.

"Anadolu" agentliyi Ermənistandakı köhnə AES-in texniki xüsusiyyətlərinə diqqət çəkərək qeyd edib ki, İrəvan həm də yeni AES məsələsini təkcə Rusiya ilə deyil, ABŞ, Cənubi Koreya, Çin və Fransa ilə də müzakirə edir.

# Abşeronda fəaliyyət göstərən sahibkarlarla görüş keçirilib

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı və Abşeron Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Abşeron rayonunda fəaliyyət göstərən sahibkarlarla görüş keçirilib. AZƏRTAC Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə istinadla xəbər verir ki, görüşdə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və agentliyin aidiyyəti struktur bölmələrinin rəhbərləri, Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, rayonda kənd təsərrüfatı, tikinti, qida, mebel istehsalı və alternativ enerji sektorlarında fəaliyyət göstərən 120-dən çox KOB subyekti iştirak edib.**

Tədbirdə sahibkarlara göstərilən dövlət dəstəyi tədbirləri və dəstək mexanizmləri, yeni çağırışlar, rayonun iqtisadi potensialı və biznes imkanları barədə məlumat verilib. Sahibkarların təklifləri və təşəbbüsləri əsasında dövlətin dəstəyi tədbirlərinin davam etdiriləcəyi qeyd olunub.

İş adamları ilə sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsi, torpaqların təyinatının dəyişdirilməsi, Qarabağda yeni bizneslərin yaradılması, iri ticarət şəbəkələrinə çıxışa dəstək, yeni bazarlarla əlaqələrin qurulması, xarici ölkə sahibkarları ilə təcrübə mübadiləsinə dəstək, sənaye zonalarının imkanlarının artırılması, kommunal xidmətlər, biznes inkubatorların yaradılması, qadın və gənc sahibkarlar üçün yeni dəstək mexanizmlərinin formalaşdırılması kimi məsələlər barədə müzakirələr aparılıb.

Görüşdə həmçinin sahibkarların çətinlikləri və təşəbbüsləri dinlənilib, sualları cavablandırılıb.

# Naxçıvanda biomüxtəlifliyin qorunması ilə bağlı tədbirlər icra olunur

**"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı"na uyğun olaraq BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisi Qlobal Ekoloji Fond (GEF) tərəfindən maliyyələşdiriləcək "Naxçıvanda xüsusi mühafizə olunan ərazilər arasında əlaqələnmənin möhkəmləndirilməsi" adlı layihə üçün təfsilatlı layihə sənədinin hazırlanmasına başlayıb.**



Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, sözügedən layihənin konsepsiya sənədi GEF və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim edilib və sənəd nazirlik tərəfindən təsdiq olunub. Layihənin hədəf ərazisi Şərqi Kiçik Qafqaz dəhlizidir. Məqsədi isə Naxçıvanda təbii resursların ekoloji cəhətdən dayanıqlı istifadəsinin təşviqi yolu ilə Şərqi Kiçik Qafqaz dəhlizində biomüxtəlifliyin qorunmasıdır.

Məlumat üçün bildirək ki, layihənin icrası üçün xüsusi mühafizə olunan təbiət əraziləri olan Zəngəzur Milli Parkı (42 797 ha), Arazboyu Dövlət Təbiət Yasaqlığı (9118 ha), Ordubad Dövlət Təbiət Yasaqlığı (27869 ha) və Arpaçay Dövlət Təbiət Yasaqlığı (68 911 ha) hədəf kimi götürülüb və Naxçıvanda Şərqi Kiçik Qafqaz dəhlizi daxilində mühafizə, planlaşdırma və operativ idarəetmə potensialının gücləndirilməsi, Naxçıvanda Şərqi Kiçik Qafqaz dəhlizində davamlı kiçikmiqyaslı kənd təsərrüfatı fəaliyyəti və turizmin təşviqi və biliyin paylaşılması, monitorinq və qiymətləndirmə nəzərə alınıb. FAO-nun Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisi layihə sənədinin hazırlanması üçün işçi qrupu yaradıb. Layihənin formalaşdırılması prosesinin effektiv əlaqələndirilməsi və lazımi məlumatların toplanması məqsədilə FAO-nun milli eksperti Naxçıvan Muxtar Respublikasına səfər edib.

Səfər zamanı Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəhbərliyi, xüsusi mühafizə olunan ərazilərin (XMTƏ) rəhbərliyi və işçiləri ilə görüşlər keçirilib, Zəngəzur Milli Parkına sahə səfəri edilib və yegerlərlə də görüşlər təşkil olunub.

# "Tullantıları hədiyyələrə dəyiş" festivalı: 4803 litr plastik tullantı toplanıb



"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı, Xətai Rayon İcra Hakimiyyətinin, "Azersun Holding" MMC-nin, "Təmiz Şəhər" ASC-nin, "AzEkol" MMC-nin, "Kontakt" mağazasının, "Araz" supermarketlər şəbəkəsinin, "Libraff" kitab mağazaları şəbəkəsinin, "Təkan" İctimai Birliyinin dəstəyi ilə Ağ Şəhər "Biznes Mərkəzi 2020"nin qarşısında "Tullantıları hədiyyələrə dəyiş" festivalı keçirilib. AZƏRTAC xəbər verir ki, festival çərçivəsində vətəndaşlar ümumi həcmi 4803 litr olan plastik, 475 litr olan şüşə və 393 ədəd işlənmiş batareya təhvil verərək əvəzində müxtəlif hədiyyələr əldə ediblər.

Festival çərçivəsində uşaqlara tullantıların idarə olunması sahəsində master-klas təşkil olunub, ekoçantalar və kətan üzərində tullantılarla bağlı rəsmlər çəkilib. "Təmiz şəhər" ASC-nin "Tullantıdan sənətə" eksponatları nümayiş etdirilib, həmçinin uşaqlar tullantılardan əşyalar hazırlayıblar.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Ekoloji maarifləndirmə və kommunikasiya şöbəsinin müdiri Səyyarə Məmmədova "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirilən tədbirin məqsədinin tullantıların qarşısını almaq, resurslardan daha səmərəli istifadə etmək, tullantıları mənbəyində toplayıb təkrar emal etmək, ictimaiyyəti tullantıların düzgün idarə olunmasına stimullaşdırmaq olduğunu deyib:

"Festival vətəndaşların marağına səbəb oldu. Onlar evdə çeşidlədikləri plastik, şüşə tullantıları, təhlükəli tullantılar sayılan batareyaları təhvil verib əvəzində müxtəlif hədiyyələr qazandılar".

# "Azərbaycanın külək və günəş enerjisi hasil etmək üçün yaxşı potensialı var"

**Bərpaolunan enerji mənbələri üzrə böyük potensiala malik Azərbaycan artıq alternativ enerji mənbələrinə uğurlu keçid nümunəsidir. Rəsmi Bakı "yaşıl enerji"yə keçidə yönəlmiş innovativ yanaşmalar üzrə regionda liderə çevrilib və iqlim dəyişikliyinin təsirlərilə mübarizəyə ciddi töhfə verir.**



Hökumətin iqlim dəyişikliyi ilə mübarizəyə töhfə vermək səylərinin məntiqi nəticəsi dünyanın ən böyük və ən nüfuzlu tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Bakıda keçirilməsi qərarı oldu. Bu addım enerji keçidi sahəsində texnoloji həllər məsələsində ölkəmizin nailiyyətlərini dünyaya nümayiş etdirmək imkanı verəcək.

Jurnalist T.Məmmədova AZƏRTAC üçün mövzu ilə bağlı ekspert, "Balesene" enerji konsaltinq şirkətinin baş direktoru və Şərqi Finlandiya Universitetinin enerji hüququ və siyasəti departamentinin professoru Andrey Belıy ilə müsahibə hazırlayıb.

*- Bu gün iqlim məsələləri həmişəkindən daha aktualdır. Belə bir vaxtda Azərbaycanın COP29-a sədrliyi bu problemlərin həllinə necə töhfə verəcək? İqlim maliyyəsinin üzləşdiyi əsas problemlər hansılardır? COP29 və Azərbaycan bu problemin həllinə necə töhfə verə bilər?*

- Belə bir irimiqyaslı tədbirin keçirilməsində Azərbaycan öz üzərinə böyük məsuliyyət götürüb. Rəsmi Bakının rolu əsasən kompromislər tapmaq üçün əks nöqteyi-nəzərlər arasında körpülər qurmaq olacaq. Gündəlikdəki mübahisəli məsələlərdən iki misal çəkəcəyəm. Mübahisənin ilk mövzusu: iqlim sazişləri qalıq yanacaqların mərhələli şəkildə dayandırılmasını ehtiva etməlidirmi? Aİ və bir sıra digər ölkələr belə bir müddəanı tətbiq etmək istəyirlər. Hindistan, eləcə də neft hasil edən ölkələr bunun əleyhinədirlər. Azərbaycan izah etməlidir ki, yoxsul ölkələrdə mədən yanacaqlarından sürətlə uzaqlaşma meşələrin qırılmasına gətirib çıxaracaq ki, bu da iqlim neytrallığı problemini daha da pisləşdirəcək. Neft və qaz sənayesindən investisiyaların geri çəkilməsi onun bahalaşmasına gətirib çıxaracaq ki, bu da inkişafı ləngidə və enerji yoxsulluğunu artıra bilər. Lakin müddəanın əleyhdarları da başa düşməlidirlər ki, yeni texnologiyalara dəstək prioritet olmalıdır.

*- Sizcə sənayesi daha çox inkişaf etmiş ölkələrin bərpaolunan enerjiyə daha çevik yönəlməsi şansı yüksəkdir, yoxsa onlara bunu tələb kimi qoymaq lazımdır?*

- Hər şey danışıqların necə getməsindən asılı olacaq. Çoxları iqtisadiyyatın tam dekarbonlaşdırılmasına mərc edir, bu da real görünmür. Birincisi, hidro və geotermal enerji istisna olmaqla, bərpaolunan mənbələr şəbəkəyə əsas yükü təmin edə bilməz. Onlar hava şəraitindən, küləkdən və ya günəşdən asılıdır. Bu o deməkdir ki, hava buna imkan vermədikdə, vaxtaşırı alternativ lazımdır, bu da ən çox kömür və ya yanacaqdoldurma məntəqələrindən gəlir. Nəticədə, şəbəkə xərcləri artır və emissiyalar istədiyimiz qədər sürətlə azalmır. İkincisi, indi elektrik enerjisi sektorunda bərpaolunan mənbələrdən istifadə olunur. Lakin onun birbaşa enerji istehlakında payı dünyada cəmi 18 faizdir. Qalanı istilik, nəqliyyat yanacağı və sənaye istehsalına (buxar) sərf olunur. Çin hazırda iqtisadiyyatı, nəqliyyatı və mənzil-kommunal xidmətlərini elektrikləşdirir ki, bu da şəbəkələrin genişləndirilməsini və infrastrukturların yenidən qurulmasını tələb edir. Çinin bu səyləri təxminən 800 milyard dollar dəyərində qiymətləndirilir. Bu imkan hər kəsə nəsib olmayacaq.

İnkişaf etmiş ölkələr çox vaxt inkişaf etməkdə olan dünyadakı vəziyyəti düzgün qiymətləndirmirlər. Sənayenin və infrastrukturun inkişafı üçün faydalı qazıntılara çıxış lazımdır. Neft-kimya məhsulları bütün neft istifadəsinin 16 faizini təşkil edir. Təəccüblü deyil ki, son 10 ildə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatından kənar ölkələr enerji istehlakını 30 faizə qədər artırıblar. Bu cür göstəricilər emissiyaların azaldılması səylərini sarsıdır. Bununla yanaşı, dünya iqtisadiyyatının artıq istixana qazı emissiyalarından asılılığını azaltmasına az diqqət yetirilir. Emissiya qabiliyyəti əmsalı (yəni iqtisadi artım vahidinə düşən emissiyaların artımı) azalır. Aİ və Böyük Britaniyada bu, artıq mənfidir. Sənayenin enerji səmərəliliyinin artırılması və enerji itkilərinin azaldılması (xüsusən karbohidrogenlərin istehsalında) böyük rol oynayır. İnkişaf etmiş ölkələr isə bu işdə inkişaf etməkdə olan ölkələrə kömək edə bilərlər.

*- Azərbaycan iqlim dəyişikliyi və enerjiyə keçid təşəbbüslərinin həyata keçirilməsi prosesində xarici investorları cəlb etmək üçün hansı addımları atmalıdır?*

- Bizə iqlim strategiyası və dövlətin məqsədlərini əks etdirən qanunvericilik bazası lazımdır. Dövlət özü də neft və qaz gəlirlərindən böyük layihələri birgə maliyyələşdirmək üçün istifadə edə bilər, bu artıq baş verir. Azərbaycanın külək enerjisi, günəş enerjisi, eləcə də geotermal istilik hasil etmək üçün yaxşı potensialı var. Bu, xüsusilə kənd yerləri üçün vacibdir. Hesab edirəm ki, Azərbaycan daha çox ənənəvi yanacaq növlərini azaltmaq üçün mənzil-kommunal təsərrüfatının elektrikləşdirilməsinə diqqət yetirməlidir. Bu, enerji səmərəliliyini artırmağa və enerji yoxsulluğu ilə mübarizə aparmağa imkan verir.

*- Azərbaycan neft ölkəsi olmasına baxmayaraq, ənənəvi enerji ehtiyatlarının bərpaolunan mənbələrlə əvəzlənməsi istiqamətində addımlar atır. Bu addımların gələcək perspektivləri haqqında fikrinizi bilmək maraqlı olardı.*

- Həqiqətən də irəliləyiş var. Karbohidrogen hasilatında metan emissiyaları da var. Hər ton metan emissiyası 84 ton karbon qazı emissiyasına bərabərdir. Prinsipcə, bu, emissiyaların azaldılması və regionun təmizliyinin yaxşılaşdırılması üzrə beynəlxalq öhdəlikləri yerinə yetirmək üçün yaxşı fürsətdir. Emissiyaları yanacaqdoldurma məntəqələrinin və ya neft-kimya məhsullarının inkişafı ilə azaltmaq olar.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Qərəzli və əsassız mövqeyə görə Fransa ölkəmizdən üzr istəməlidir

**Olimpiya Oyunları müxtəlif millətlərin və mədəniyyətlərin nümayəndələrini bir araya gətirib sülh, dostluq və həmrəylik ideallarını təbliğ etmək, dövlətlərarası münasibətləri, beynəlxalq əməkdaşlıq əlaqələrini yaxşılaşdırmaq üçün bu, onu keçirən ölkənin əlinə düşmüş bir fürsətdir. Olimpiya Oyunları sülh, dostluq, həmrəylik ideallarının həyata keçirildiyi, ayrı-seçkiliyin bütün formalarının qadağan olunduğu bir platformadır...**



Belə möhtəşəm beynəlxalq tədbirlərin keçirildiyi ölkələr yaranmış fürsətdən istifadə edib adət-ənənələrini, milli mədəniyyətlərini, siyasi düşüncələrini və xarakterlərini dünyaya nümayiş etdirirlər.

Fransanın adı Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean və Latın Amerikasında yaşayan xalqların yaddaşında ölkələrini işğal edib, sərvətlərini talayan, onları uzun illər əsarətdə saxlayıb, etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoyan bir dövlət kimi qalıb.

Beynəlxalq Olimpiya Komitəsi XXXIII Yay Olimpiadasının Fransada keçirilməsi barədə qərar verəndə düşünmək olardı ki, Fransa tarixi keçmişdə buraxdığı səhvləri təkrarlamayacaq, verilən fürsətdən faydalanaraq sülhü, tolerantlığı təbliğ edəcək, iştirakçı dövlətlər arasında heç bir ayrı-seçkilik etməyəcək. Əslində, məqsədi də bu olmalı idi. Amma Olimpiya Oyunlarının açılışı zamanı baş verən rüsvayçılıqlar göstərdi ki, XXI əsrin Fransası ilə, 132 il Əlcəzairi işğal altında saxlayıb 1,5 milyon insanı qətlə yetirən, Mərakeşdə, Tunisdə, Malidə, Cibuti, Nigeriya, Çad, Seneqal, Vyetnam, Qəmər adalarında, Haiti və digər ölkələrdə qanlı cinayətlər törədən Paris arasında heç bir fərq yoxdur.

"Paris-24" Olimpiya Oyunlarının açılışı 1961-ci il oktyabrın 17-də Parisdə müstəqillik tələbi ilə keçirilən aksiya zamanı həlak olanların xatirəsinə Əlcəzair nümayəndə heyətinin Sena çayına qızılgüllər atması ilə də yaddaşlara öz möhürünü vura bildi. Xatırladaq ki, o vaxt Əlcəzair Fransanın müstəmləkəsi idi. 17 oktyabr nümayişi faciə ilə bitib, polis 200-ə yaxın nümayişçini qətlə yetirib və onların bir çoxunun cəsədini Sena çayına atıb. 17 oktyabr hadisələri indi "Paris qırğını" kimi xatırlanır.

XXXIII Yay Olimpiya Oyunlarının açılışı zamanı sanki təşkilatçılar, Prezident Emmanuel Makron və komandasının bir məqsədi vardı ki, Olimpiya Oyunları dünya tarixinə rəzalət oyunları kimi düşsün. Olmipiadanın açılışı bir daha sübut etdi ki, XXI əsrdə yaşasaq da, Fransanın ciddi düşüncə problemi var. Fransa "tarixi ənənələrinə" sadiqdir. Bu ölkəni hələ də sağlam düşüncədən uzaq, genetik olaraq neokolonializm xəstəliyinin daşıyıcıları idarə etməkdədir. Əslində, Emmanuel Makronla Əlcəzairdə müsəlmanlara qarşı qanlı cinayətlər törətmiş xələfləri arasında heç bir fərq yoxdur.

Fransanın ölkəmizə qarşı qərəzli mövqeyi bizə 30 ildir ki, məlumdur. 2020-ci il Vətən müharibəsi zamanı Ermənistan üzərində qazandığımız möhtəşəm qələbədən sonra rəsmi Paris özünü ifşa edərək ölkəmizə qarşı olan qərəzli münasibətinə bir az da hirs, hikkə qatdı. Emmanuel Makronun gözü o qədər tutuldu ki, beynəlxalq hüquqa məhəl qoymadan birtərəfli olaraq təcavüzkar Ermənistanı silahlandırmaqla müharibə alovunu körüklədi. Bunlar azmış kimi, Fransa Olimpiya Oyunlarından siyasi məqsədləri üçün istifadə etdi. İlk rəzaləti Olimpiadanın açılış mərasimində milli komandaların keçidi zamanı Fransa dövlətinə məxsus "France 2" telekanalının aparıcısı Loran Delausun idmançıların keçidi zamanı ayrı-seçkilik edərək Azərbaycanı Ermənistanla hərbi toqquşmalarda ölkəmizi günahlandırması oldu. Erməni idmançılar paraddan keçərkən o, "və təbii ki, bizim dostlarımız ermənilərdir. Ermənistan tarixən fransızların qəlbinə yaxın bir ölkədir. Ötən il Ermənistan üçün matəm ili olub və Qarabağın Azərbaycan Ordusunun əlinə keçməsi və itirilməsi ilə nəticələnib", - deyərək Fransa dövlətinin siyasi mövqeyini ifadə etdi. Qeyd edək ki, rəzalət tək açılış mərasimində yox, bütövlükdə, oyunların təşkilindən tutmuş bütün məsələlərdə yaşanıb və proses davam edir.

Olimpiya Oyunlarının zəif təşkilinə, Paris də daxil olmaqla ətraf şəhərlərdə yaşanan problemlərə görə insanlar media və sosial şəbəkələrdə Makron və komandasını sərt tənqid edirlər.

Oyunlar zamanı bir məsələ də diqqət çəkdi: 1923-cü ildən Sena çayında çimmək rəsmən qadağan edilib. Amma düz bir əsr sonra Parisdə Olimpiya Oyunlarının açılışına cəmi 4 həftə qalmış yeni kanalizasiya təmizləyici qurğular sayəsində çay üzgüçülük üçün guya əlverişli hala gətirilib. AFP xəbər verir ki, 2024-cü il Olimpiadasında triatlonçular üçün ilk üzgüçülük məşqi Senada suyun keyfiyyətsizliyinə görə ləğv edilib. Təşkilat komitəsi son bir neçə gündə yağan yağışlar nəticəsində suyun keyfiyyətinin daha da pisləşdiyini qeyd etsələr də, triatlon yarışının planlaşdırıldığı kimi, iyulun 30 və 31-də keçiriləcəyinə əminliklərini bildirdilər. Oyunlar zamanı bəlli oldu ki, çayın çirklilik səviyyəsi ilə bağlı problemlər qalmaqdadır. İctimaiyyəti Sena çayının təhlükəsiz olduğuna inandırmaq üçün Fransanın idman naziri, ardınca isə Paris meri çayda üzgüçülük təşkil etdi. Prezident Emmanuel Makronun özü də üzməyə söz versə də, vədinə əməl etmədi. Məlum oldu ki, çayın çirklənməsinin səviyyəsi yüksəkdir. Fransanın "France Info" radiostansiyasının məlumatına görə, həmin gün E.coli və enterokokkların səviyyəsi həddi keçib. Belə suda üzmək faciəvi nəticələrə - qastroenterit və dəri xəstəliklərinə səbəb ola bilər.

"Paris-24" Olimpiadasının digər biabırçılığı isə kondisionerlərlə bağlı olub. Təşkilatçılar oyunçuların ekoloji sağlamlıqlarının qayğısına qalaraq Olimpiya Kəndində kondisioner quraşdırılmasından imtina edərək, soyutma üçün istilik nasoslarından istifadə edilməsini planlaşdırıblar. Tempuraturun +30 dərəcədən yuxarı qalxdığını hiss edən Finlandiya, Meksika, ABŞ və İspaniya komandaları buna etiraz olaraq kondisionerlər tələb ediblər.

İdmançılar qidalarının az olmasından da şikayətləniblər. Böyük Britaniyadan olan idmançılar Olimpiya kəndində ərzaq qıtlığı ilə üzləşdiklərini bildiriblər. Fransanın "L'Equipe" qəzetinin məlumatına görə, səhər yeməyi zamanı idmançıların çoxluğu səbəbindən restoranda məhdud sayda ərzaq, o cümlədən toyuq yumurtası olub.

Almaniyanın otüstü xokkey komandasının üzvləri Parisdəki Olimpiya kəndində arzuolunmaz şəraitdən gileylənibləр. DPA agentliyinə millinin futbolçusu Kristofer Rur məlumat verərək belə deyib: "Yemək ən azı bir fəlakətdir. İnanılmaz dərəcədə uzun müddət növbə gözlənilir. Yeməklərin keyfiyyəti isə o qədər də yaxşı deyil".

Əsas problemlərdən biri də nəqliyyatın düzgün işləməməsi, hava limanlarından xüsusi transferlərin olmaması, metronun bir çox stansiyalarında eskalatorların işləməməsi ilə bağlıdır. Olimpiada ilə əlaqədar ölkəyə gələn turistlərin artması səbəbindən metro və qatarlarda ciddi sıxlıqlar və gecikmələr yaranıb.

"Aftonbladet" nəşrinin məlumatına görə, stolüstü tennis yığması üzrə İsveçin milli komandası gediş-gəliş üçün 1 saat 20 dəqiqə vaxt sərf edərək məşqə çıxmalı olduqlarından yazıb. Məşqçi Yorqen Persson bildirib ki, avtobuslarda kondisioner işləmir və hava çatışmazlığı səbəbindən nəqliyyatda qalmaq mümkünsüz olur.

Yeri gəlmişkən qeyd edək ki, Beynəlxalq Olimpiya Komitəsi "Paris-2024" Yay Olimpiya Oyunlarının açılış mərasiminin şərhi zamanı "France2" telekanalının müxbirinin işlətdiyi ifadələrə görə Azərbaycandan üzr istəyib. Olimpiya Oyunlarının açılışı zamanı ölkəmizə qarşı əsassız iddialara və qərəzli mövqeyə görə Fransa hökumətinin də Azərbaycandan rəsmi şəkildə üzr istəməsini gözləyirik.

*Elşən QƏNİYEV, "Azərbaycan"*

## M.ZAXAROVA: "Olimpiya Oyunlarının açılışında Fransa öz simasını deyil, "nəsə başqa bir şey" göstərdi"

**Parisdə keçirilən Olimpiya Oyunlarının açılış mərasimində Fransa öz simasını deyil, "nəsə başqa bir şey" göstərdi. AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova özünün Telegram kanalında paylaşım edib.**



O, Fransa Prezidenti Emmanuel Makronun açılışda ölkənin "əsl simasını" nümayiş etdirməsi ilə bağlı sözlərinə belə reaksiya verib.

Zaxarova yazıb: "Çoxları bunun başqa bir şey, bədənin bəzi digər hissələri olduğunu düşünürdü. Lakin Makron Fransanın indi belə bir sifətə sahib olmasında israr etdiyinə görə, o, əlbəttə ki, daha yaxşı bilir".

Parisdə Olimpiya Oyunlarının açılışı iyulun 26-da baş tutub. Bu hadisə cəmiyyətin və dini liderlərin hiddətinə səbəb olub. Qalmaqala səbəb Leonardo da Vinçinin "Son şam yeməyi" əsərinin parodiyası olub; burada transvestitlər və yunan şərab tanrısı Dionis qiyafəsində çılpaq müğənni iştirak edib. Olimpiadanın təşkilat komitəsi tənqidlərə cavab olaraq üzr istəyib və bu kompozisiyanın heç bir dini qrupu təhqir etmək niyyəti daşımadığını vurğulayıb.

Bundan əvvəl Zaxarova Oyunların açılış mərasimini "mənəvi çökmə" adlandırmışdı. ABŞ-nin sabiq Prezidenti Donald Tramp da onu biabırçı hesab edirdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə həmin mərasimi əxlaqsızlıq adlandırıb.

## "Paris-2024": Olimpiya kəndində qidanın az olması yenidən gündəmə gəlib

**"Paris-2024" Olimpiya Oyunlarına qatılmış idmançılar Olimpiya kəndində qidanın çatışmazlığı, həmçinin məhsulların tərkibində zülalın olmamasından narazılıqlarını bildiriblər.**

AZƏRTAC xəbər verir ki, "Le Figaro"da dərc olunan "Olimpiya kəndində idmançılar ac qalırlar" sərlövhəli məqalədə qidalanmanın idmançıların performansı üçün vacib rolu diqqətə çatdırılaraq, qastronomiya diyarı hesab olunan ölkədə Olimpiya kəndinin mətbəxinin tənqidlərlə qarşılaşdığı vurğulanıb.

Bildirilib ki, müxtəlif ölkələrin idmançıları Olimpiya kəndindəki menyulardan müntəzəm olaraq şikayətləniblər. Porsiyaların çox az olması, ətin kifayət qədər bişirilməməsi, heyvan zülalının çatışmazlığı, çox uzun növbələrdən şikayətlər və narazılıqlar sosial şəbəkələrdə geniş yayılıb. "Problem ərzağın çatışmazlığıdır. Bu, çox təəccüblüdür", - deyə üzgüçü Julio Horreqo bildirib. Gündəlik 5000 kaloriyə ehtiyacı olan honduraslı idmançı səhər yeməyində yumurta tapmadığı üçün şoka düşüb.

Alman xokkeyçiləri yeməklərin keyfiyyətindən məyus olmaqla bərabər, pik saatlarda həddindən artıq uzun növbə olmasından şikayətlənirlər.




Amerikalı gimnastika ulduzu Simone Biles Olimpiya kəndi mətbəxinin keyfiyyəti ilə bağlı son nöqtəni qoyub. Fərdi çoxnövçülük yarışında qızıl medalın sahibi mətbəxdə yeməklərin keyfiyyətsiz olduğunu bildirib.

İlk gündən yumurta çatışmazlığından və toyuq ətinin yaxşı bişməməsindən şikayətlənən Britaniya idmançıları tənqidlərlə kifayətlənməyib, Olimpiya kəndinin mətbəxini boykot ediblər.

Qeyd edilib ki, burada idmançıların karyeraları həll olunur. Olimpiya kəndinin restoranında isti yeməklərin 33 faizi bitki mənşəlidir. Onlar daha çox vacib olan heyvan mənşəli zülallar, yumurta və ət tələb edirlər. İdmançıların həyatının həlledici vaxtında onların pəhrizini dəyişməyin vaxtı deyil.

## Parisin restoran və hotel sektorunda sahibkarlar Olimpiadadan narazıdırlar

**Gözlənilən Olimpiya turistləri "həqiqətən" Parisə gəliblər, lakin adi turistlər bu böyük idman hadisəsindən qorxublar. Parisli restoran və mehmanxanaçılar bundan narazı qalıblar.**

AZƏRTAC Avstriyanın "Die Presse" qəzetinə istinadla xəbər verir ki, Olimpiadanın ilk həftəsi başa çatmaq üzrədir və Parisdə bir çox restoran və mehmanxanaçılar məyusdurlar. "Bizə 15 milyon insanın Parisə gələcəyini söylədilər, bəs onlar haradadır?", - deyə Sena sahilində restoran və barları idarə edən Arnod Peyc sual verir.

"Protourisme" konsaltinq şirkətinin rəhbəri Didier Arino isə deyir: "Olimpiada yüksək qiymətləri və qorxu hissi ilə müntəzəm turistləri kənarlaşdırdı".

Gözlənilən Olimpiya turistləri həqiqətən gəldi. Fransa paytaxtını turizm məkanı kimi tanıdan "Choose Paris" ("Parisi seçin") assosiasiyasının məlumatına görə, Olimpiada başlayandan bəri xarici ziyarətçilərin sayı əvvəlki illə müqayisədə təxminən 20 faiz artıb.

Adətən yay aylarında çox izdihamlı olan "Disneyland Paris"də əyləncə parkı proqramı müxtəlif attraksionlar üzrə ilin bu vaxtı üçün normaldan xeyli qısa gözləmə saatlarını göstərir. Taksi sürücüləri bu həftə sərnişin çatışmazlığından böyük məyusluq ifadə ediblər və Oyunlar ətrafında təhlükəsizlik tədbirləri nəticəsində yaranan böyük nəqliyyat pozuntularına görə hökumətdən təzminat tələb edirlər.



## Dövlət büdcəsindən öz maraqları üçün sui-istifadə edən fransalı məmurun başı yenidən bəladadır

**2022-ci ildə son dərəcə bahalı "zirvə naharı"ndan sonra Overn Ron Alp (Auvergne Rhone Alpes) Regionu Şurasının sədri Loran Vokyenin (Laurent Wauquiez) başı yenidən bəladadır. Milli Maliyyə Prokurorluğunun haqqında araşdırma apardığı L.Vokye son iki ildə naharlara xərclədiyi dövlət maliyyəsi ilə yenidən gündəmə gəlib.**




Bu dəfə Overn Ron Alp (Auvergne Rhone Alpes) Regionu Şurasının sədri L.Vokye artıq narahat olmağa başlayıb və bahalı naharlara xərclənən həddindən artıq vəsaiti geri qaytarmağa hazır olduğunu bildirib.

AZƏRTAC xəbər verir ki, 2022-ci il dövlət hesabına dəbdəbəli şam yeməyinin təşkili ilə əlaqədar Milli Maliyyə Prokurorluğunun araşdırma apardığı L. Vokye bu dəfə Parisdə bahalı yeməklərə xərclədiyi vəsaitə görə Regional Hesablama Palatasının hədəfinə düşüb. Şikayətlər arasında yer alan L. Vokyenin iaşə xərcləri, xüsusilə də Parisdə deputatlar, senatorlar və jurnalistlərlə çoxsaylı nahar yeməyinə xərclədiyi vəsait Regional Hesablama Palatasını təəccübləndirib.

Yerli "Le Dauphine Libere" qəzetinin məlumatına görə, o, 2022-ci ildə naharlara 77 min 180 avro, 2023-cü ildə isə 45 min 988 avro vəsait xərcləyib. 2022-ci ilin martında yazıçı Mişel Houellebek ilə şam yeməyi 1248 avro olub.

Loran Vokye inandırmağa çalışıb ki, bu yeməklərin qiyməti barədə ona məlumat verilməyib. "Mən bunu öyrənəndə hesab etdim ki, bu, normal deyil, ona görə də həddindən artıq məbləğin ödənilməsini şəxsən təmin etmək qərarına gəldim", - deyə L.Vokye bildirib.




# COP29-un gündəliyinin tarixin yaddaşına hopacağına şübhə yoxdur

**Dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da insanlar hər gün iqlim dəyişikliyi ilə bağlı ciddi problemlərlə üzləşirlər. Ölkənin bəzi yerlərində həm quraqlıq, həm də su qıtlığı müşahidə olunur. Ekstremal hava şəraiti vəziyyətin daha da pisləşməsinə təsir edən amildir. Eyni zamanda torpağın deqradasiyaya uğraması ölkənin təbii ehtiyatlarının tükənməsinə səbəb olur ki, bu da kənd təsərrüfatına mənfi təsir edir.**



Neft-qaz hasilatı isə torpağın deqradasiyasına və suyun çirklənməsinə "kömək edən" faktor kimi gündəlikdə dayanır. Ona görə də alternativ enerji mənbələrindən istifadəni gecikdirmək olmaz. Bərpaolunan enerji ekoloji tarazlığın pozulmasını aradan qaldıran önəmli faktordur. Bu mənada BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) bərpaolunan enerji mənbələrindən istifadənin vacibliyi diqqətə çatdırılacaq və müvafiq qərarlar qəbul olunacaq.

"Yaşıl dünya naminə həmrəylik ili" ilə COP29-un eyni vaxta düşməsində də bir hikmət var. Bu hikmət təkcə COP29-un məqsədlərinin həyata keçirilməsinə "yaşıl işıq" yandırmır, həm də dünyanın 80 mindən çox insanını Bakıya gətirir. Onlara Azərbaycanla tanışlıq imkanı yaradır, işğaldan azad olunmuş Qarabağın dünəni və bu günü ilə üz-üzə gəlməyə fürsət verir. Təbii ki, fürsəti əldən vermək istəməyənlər məkrli, yalançı siyasət donuna bürünmüş ermənilərin 30 ildə Qarabağı viran etdiklərini gözləri ilə görəcək və həmin xarabalıqlar fonunda yeni Qarabağla "görüşəcək", "yaşıl zona" elan olunmuş regionun yeni ab-havasında nəfəs alacaqlar. İllərlə əsirlikdə "işgəncə çəkən", soluxan yaşıllıqların günəşdən nur aldıqlarına şahid olacaqlar. Tarix şahidlərin gördükləri və dediklərinə söykənərək yaşayır. Bu baxımdan, COP29-un iki həftəlik Azərbaycan gündəliyi də tarixin yaddaşında "yaşıl dünya naminə həmrəylik" kimi qalacaq.

Artıq hər kəsə məlumdur ki, dünyanın xilası yaşıllıqdan keçəcək. Yaşıl həyat deməkdir, o, sağlam yaşamağın "dirilik suyu"dur. Ümidlərin ölməməsidir yaşıl. "Yaşıl" sözünü özündə ehtiva edən bütün nəsnələr sağlam həyata, aydın planetə, təmiz Yer kürəsinə xidmət edir. Bu xidmətləri yerinə yetirən fəaliyyət növləri müxtəlifdir. Onlardan biri ekoturizmdir. Dünyanı yaşıllaşdırmağın, bəşəriyyəti ayaqda saxlamağın bir yolu da ekoturizmdən keçir. Ekoloji turizm dayanıqlı turizm növü olmaqla ətraf mühitə qayğını özündə ehtiva edir. Bu qayğı daha çox təbiətə olan səfərlər zamanı onu öyrənməklə həyata keçirilir. Bu turizmin digər növlərdən fərqi ətraf mühitin qorunmasına səbəb olması, yerli təbiətdən zövq almağa şərait yaratmasıdır. COP29-un da fəaliyyət növlərindən biri budur.

Ekoturizm və COP29 eyni məqsədə xidmət etdiyi üçün Azərbaycanın turizm sənayesi bu istiqamətdə də qollarını geniş açacaq. Ekoturizmə yol açan, ona meydan verən amillərdən ən əsası alternativ enerji mənbələridir. Bu gün alternativ enerji mənbələrindən olan günəş enerjisindən dünyanın bir çox ölkələrində istifadə edilir. Evlərin damlarına və divarlarına düşən günəş enerjisindən istifadə bu evlərin sakinlərinin illik enerji tələbatını xeyli azaldır. Günəş və istilik enerjisi təmizdir, sadədir və onun bütün formalarının alınması təbii üsullarladır. Onu da deyək ki, Azərbaycanda günəş və külək enerjisindən sistemli şəkildə istifadə edilməsi "yaşıl enerji" konsepsiyasının əsas elementlərindəndir. Xüsusən nəzərə alsaq ki, işğaldan azad olunan ərazilərimizin günəş və külək potensialı böyükdür. Qarabağ və Şərqi Zəngəzur 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Günəş enerjisi potensialı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda, külək enerjisi potensialı isə Laçın və Kəlbəcərin dağlıq ərazilərində daha çox müşahidə olunur. Ümumilikdə, Qarabağın dağlıq ərazilərində külək enerjisinin potensialı 500 meqavatadək qiymətləndirilir. Bu ərazilərdə 2025-ci ilədək 11 hidroloji, 8 meteoroloji, 1 radiometeoroloji (radar), 4 radioekoloji, 2 hava keyfiyyəti üzrə kompleks avtomatik ölçmə stansiyaları və 1 aerozond stansiyasının quraşdırılması nəzərdə tutulub. Şuşa, Kəlbəcər, Ağdam, Zəngilan və Füzuli rayonlarında 5 meteoroloji stansiyanın quraşdırılması ilə bağlı tədbirlər görülür.

Qarabağın və Şərqi Zəngəzurun "yaşıl enerji" zonası elan edilməsi də ekoturizmin əlindən tutur. Regionlara üz tutan əcnəbilərin hər cür "yük"ünü daşıyacaq bələdçilər qlobal tədbirin nahaqdan Azərbaycanda keçirilmədiyini göstərəcəklər. Turizm agentliklərinin dediyinə görə, bələdçilər beynəlxalq standartlara uyğun hazırlanaraq 27 dildə fəaliyyət göstərirlər. Bununla belə təlimsiz və təhsilsiz bələdçilər var ki, onlara da COP29-un başlayacağı vaxta kimi xüsusi kurslar keçiriləcək. COP29-un qlobal təhlükəsizliyə töhfə verməsi, Azərbaycanın tanıdılması və daha da inkişaf etdirilməsi həmin günlərdə turizm sektorunun birnömrəli vəzifəsinə çevriləcək. Şübhəsiz, on illərin təcrübəsini qazanmış turizm bu sınaqdan alnıaçıq çıxacaq.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# *Elnur SOLTANOV:* "İqlim maliyyəsi Bakıda keçiriləcək COP29-un əsas müzakirə mövzusu olacaq"

**"İqlim maliyyəsi Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının qarşıdan gələn 29-cu sessiyasında əsas müzakirə mövzusu olacaq". "Report" xəbər verir ki, bunu COP29-un baş icraçı direktoru Elnur Soltanov "EFE" nəşrinə müsahibəsində deyib.**



Onun sözlərinə görə, COP29 sədrliyinin əsas məqsədi bütün tərəflərin ehtiyaclarını nəzərə alan iqlim maliyyəsi üçün aydın və iddialı yeni kollektiv kəmiyyət hədəfi müəyyən etməkdir.

E. Soltanov "Paris Sazişinin bütün sahələrində kollektiv tərəqqisinin" vacibliyini vurğulayaraq, iqlimin maliyyələşdirilməsinin mərkəzdə olduğunu bildirib.

Baş icraçı direktorunun strategiyasına fikir ayrılıqlarının aradan qaldırılması üçün siyasi istiqamət tapmaq və tərəflər arasında görüşlər vasitəsilə sammitə hazırlıq işlərinin sürətləndirilməsi daxildir:

"Biz yüksəksəviyyəli müzakirələrə diqqət yetirməli və siyasi əlaqəni gücləndirməliyik".

O, neft və qaz hasil edən ölkə kimi Azərbaycanın iqlim konfransına evsahibliyi etmək üçün seçilməsi ilə bağlı səslənən mənfi fikirlərə də münasibət bildirib.

O, bütün tərəflərin əməkdaşlıq etdiyi inklüziv prosesi dəstəklədiyini bildirib. Ədalətli və nizamlı keçidin zəruriliyini vurğulayan S.Soltanov qeyd edib ki, bütün ölkələr müxtəlif nöqtələrdən başlayır və dekarbonizasiya, bərpaolunan sistemin qurulması və ədalətli keçidin təmin edilməsi üçün tələblər milli şəraitdən asılı olaraq dəyişir.

"İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panel qlobal iqtisadiyyatda karbohidrogenlərin temperatur və xalis sıfır karbon hesablamalarında rolunu tanıyır. Azərbaycan tərəflərin birləşməsi üçün hər cür səy göstərəcək. Azərbaycan Konvensiyaya və Paris Sazişinə uyğun olaraq sammitin keçirilməsində inklüzivlik və şəffaflıq prinsiplərinə sadiqdir. Bu öhdəliyi irəli sürmək üçün Azərbaycan COP29-da iki sənəd təqdim edəcək".

# "New York Times"da Azərbaycanın COP29-a sədrliyinə həsr olunmuş məqalə dərc edilib

**ABŞ-nin nüfuzlu "New York Times" nəşrində Azərbaycana və ölkəmizin COP29-a sədrliyinə həsr olunmuş "Dağlıq kurort, şərab, qoyun kababı və çoxlu iqlim söhbətləri" başlıqlı məqalə dərc edilib.**


The New York Times

At a Mountain Retreat, Wine, Lamb Kebabs and Lots of Climate Talk

AZƏRTAC-ın xəbərinə görə, məqalədə bildirilir ki, bir neçə gün əvvəl şərab ölkəsi olan Azərbaycanda, Qafqazın ətəklərinə mənzərəsi olan hoteldə dünyanın aparıcı iqlim diplomatları qlobal istiləşmə ilə mübarizə və onun təsirlərindən ən çox əziyyət çəkən yoxsul və həssas ölkələrə yardım üçün böyük miqdarda pulların necə ayrılacağını müzakirə etmək üçün bir araya gəliblər. Müəllif görüşün noyabrda Bakıda keçiriləcək COP 29 konfransına hazırlıq xarakteri daşıdığını bildirib.

"Əvvəlki sammitlərdə dünya ölkələri var gücləri ilə iqlim dəyişikliyi ilə mübarizədə əsas məsələlər, əsasən də bəşəriyyətin mədən yanacağından asılılığının mümkün qədər tez aradan qaldırılması barədə razılığa gəlməyə çalışıb. Ötənilki tədbirdə dünya bu barədə razılıq əldə edib. Lakin bu yalnız kağız üstündədir. Bu nə qədər vəsait tələb edir, kim ödəyəcək?" - deyə müəllif COP 29-da məhz bu məsələlərə aydınlıq gətiriləcəyini əlavə edib.

Müəllif yazır ki, iqlim dəyişikliyinin təsirlərindən əziyyət çəkən daha yoxsul ölkələr zəngin ölkələrdən enerji keçidlərini sürətləndirməyə kömək etmələrini istəyir. On il əvvəl Parisdə keçirilmiş iqlim sammitində imzalanmış razılaşmaya əsasən, bu zəngin ölkələr Avropa ölkələri, ABŞ, Kanada, Yaponiya, Avstraliya və Yeni Zelandiyadır.

"Lakin bu siyahı 1990-cı illərin əvvəllərindəki inkişaf səviyyələrinə əsaslanırdı və o vaxtdan bəri dünya çox dəyişib. Siyahıdakı ölkələr sonradan zənginləşmiş dövlətlərin, o cümlədən Çin, Sinqapur və Səudiyyə Ərəbistanı kimi ölkələrin siyahıda yer almamasını ədalətsizlik adlandırır", - deyə qeyd olunur.

Müəllif əlavə edir ki, Bakıda keçiriləcək sammit zamanı "İqlim maliyyəsi üzrə yeni kollektiv kəmiyyət məqsədi" adlı paketin imzalanması planlaşdırılır.

Müəllif "New York Times"ın qlobal enerji və iqlim siyasətləri və istixana qazı emissiyalarının azaldılması üçün yeni yanaşmalar barədə yazan müxbiri Maks Berakdır.

# Ümumrespublika Təmizlik Marafonu çərçivəsində Qəbələdə iməcilik aksiyası keçirilib

**Ümumrespublika Təmizlik Marafonu çərçivəsində Qəbələ rayonunda iməcilik aksiyası keçirilib. Aksiyada 15 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin, Şəki Regional Hidrometeorologiya Mərkəzinin, Şahdağ Milli Parkının Qəbələ bölməsinin və Bum meşəbəyliyinin nümayəndələri iştirak ediblər.**

Bu barədə AZƏRTAC-ın bölgə müxbirinə Qəbələ Rayon İcra Hakimiyyətindən məlumat verilib.

Bildirilib ki, iməcilik aksiyasında Bum qəsəbəsindən Qəmərvan kəndinə gedən avtomobil yolunun sağ və sol kənarlarında 400 kiloqram çəkidə bərk məişət tullantısının təmizlənməsi təmin edilib.



Qeyd edək ki, "Təmiz ölkəm" devizi altında iyulun 10-da startı verilən Ümumrespublika Təmizlik Marafonu hər həftənin 4 və 6-cı günləri bütün ölkə ərazisinin çay vadilərini, meşə ərazilərini və dəniz sahillərini əhatə edir. Təmizlik aksiyalarının keçirilməsində əsas məqsəd hər kəsi ətrafa tullantı atmamağa sövq etmək, ərazilərin təmizliyinə hər bir kəsin məsul olması öhdəliyini çatdırmaq, onları alışılmış vərdişlərdən uzaqlaşdırmaq və bu işlərə daha geniş kütləni cəlb etməklə təbiət ərazilərinin təmizliyinə nail olmaqdır.

# Avstriya İtki və Zərər Fonduna ödənişin məbləğini artırır

**Avstriyanın inkişaf etməkdə olan ölkələrdə iqlim maliyyələşdirməsinin mühüm sütunu olan "İqlim Dəyişikliyi üzrə İtki və Zərər Fondu"na töhfəsi 15 milyon avro artırılacaq.**



AZƏRTAC xəbər verir ki, Avstriyanın "Die Presse" qəzeti yazır: "Neft və qazla zəngin Azərbaycanın paytaxtı Bakıda keçiriləcək növbəti iqlim konfransına üç ay qalmış Avstriya nümunə göstərir: İtki və Zərər Fonduna töhfə 15 milyon avro artaraq 25 milyona avroya çatıb. Vəsaitlər iqlim dəyişikliyinə uyğunlaşma tədbirlərini və iqlimlə bağlı hadisələrin vurduğu geri qaytarıla bilməyən zərərin kompensasiyasını maliyyələşdirmək üçün nəzərdə tutulub".

İqlim böhranının və onun dağıdıcı nəticələrinin bütün dünyada insanlar üçün ciddi təhlükə yaratdığını qeyd edən Avstriyanın İqlim Mühafizəsi, Ətraf Mühit, Enerji, Nəqliyyat, İnnovasiya və Texnologiyalar Nazirliyinin rəhbəri Leonore Gevessler deyib: "Biz öz məsuliyyətimizə ciddi yanaşır və Qlobal Cənubda yerləşən ölkələrə dəstək veririk".

Ümumilikdə, Avstriya 2023-cü ildən 2027-ci ilə qədər fonda 50 milyon dollar ayıracağını vəd edib.

İndiyədək iqlim dəyişikliyi ilə mübarizəni dəstəkləmək üçün bir neçə yüz milyon dollar ayrılıb: bu məsələdə Aİ ən böyük donordur (225 milyon avro), Almaniya və Birləşmiş Ərəb Əmirlikləri hər biri 100 milyon, Böyük Britaniya - 60 milyon və Yaponiya - 10 milyon avro vəsait ayırıb. ABŞ-nin töhfəsi kifayət qədər kiçik olub, cəmi 17,5 milyon dollar. Səbəb yəqin ki, ABŞ administrasiyasının verdiyi bir neçə bəyanatda Vaşinqtonun bu məqsəd üçün ödəmələrin "təzminat" kimi başa düşülməməli olduğunu vurğulamasıdır. Bu tələbi Qlobal Cənub ölkələri illərdir irəli sürür. Onların arqumenti budur ki, iqlim böhranı ABŞ və digər sənayeləşmiş ölkələrdə yaranıb, lakin indi bunun nəticələrinin ağır yükünü inkişaf etməkdə olan ölkələr çəkir.

# Xəzər dənizinin Novxanı sahilindən 1 tondan artıq tullantı yığılıb

**"Təmiz ölkəm" devizi altında Ümumrespublika Təmizlik Marafonu çərçivəsində növbəti aksiya avqustun 3-də Xəzər dənizinin Novxanı sahilində keçirilib.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Dövlət Gömrük Komitəsinin əməkdaşlarının, Binəqədi Rayon İcra Hakimiyyətinin, rayon bələdiyyəsinin nümayəndələrinin, "Təmiz Şəhər" ASC-nin, "AzərGold" QSC-nin, "NARGİS" jurnalının, "Araz" supermarketlər şəbəkəsinin, "ASAN" könüllülərin və ekokönüllülərin iştirak etdiyi aksiyada 1 tondan artıq tullantı yığılaraq daşınıb.



Bu barədə AZƏRTAC-a Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, təmizlik aksiyalarının keçirilməsində məqsəd insanları ətraf mühitə daha həssas və məsuliyyətli davranmağa təşviq etmək, tullantıların azaldılması və düzgün idarə olunmasına nail olmaqdır.

# REGİONLAR

## Goranboylular yetişdirdikləri məhsulu itkisiz toplayırlar

### Rayonda digər iqtisadi və sosial məsələlər də diqqətdən kənarda qalmır

**Hazırda kənd təsərrüfatında işlərin qızğın çağıdır. İnsanlar yetişdirdikləri bol məhsulu yığıb başa çatdırmaq üçün əllərindən gələni əsirgəmirlər. Belə bir dövrdə goranboyluların da işi çoxdur. Bir tərəfdə taxıl biçini, bır tərəfdə bostan məhsullarının vaxtında toplanması, digər tərəfdə isə bol pambıq istehsal etmək üçün aqrotexniki tədbirlər həyata keçirən rayon sakinləri yorulmaq bilmədən çalışırlar.**







Bilirlər ki, çəkdikləri əziyyət hədər getməyəcək. Nəticədə çoxlu qazanc əldə etməklə dolanışıqlarını təmin edəcəklər. Çəkilən zəhmət isə hədər getmir. Təkcə onu demək kifayətdir ki, cari ilin ötən dövrü ərzində ümumi məhsul buraxılışı 103 milyon 749 min 600 manat, investisiya qoyuluşu 10 milyon 346 min 300 manat təşkil etmişdir.

Rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Qeyd edək ki, bu il rayonda 15 min 559,5 hektarı arpa, 7 min 65 hektarı buğda olmaqla, 22 min 654,5 hektar taxıl sahəsində biçin aparılmışdır. Arpa üzrə orta məhsuldarlıq 33,6 sentner, buğda bitkisi üzrə isə 36,2 sentner olmuşdur. Biçin prosesində 71 kombayndan istifadə edilmişdir.

Goranboy rayonu üzrə baramaçılıqla məşğul olmaq istəyən 51 kümçünün müraciəti qeydiyyata alınmış, aprel ayı ərzində həmin kümçülərə 110 qutu baramaqurdu toxumu verilmiş, bu günə qədər məntəqələrə 4174 kiloqram ipək təhvil verilmişdir.

Rayonda kənd təsərrüfatının digər sahələri də sürətlə inkişaf etdirilir. 1450,4 hektar pambıq, 550,5 hektar qarğıdalı, 2349,8 hektar günəbaxan, 89,3 hektar şəkər çuğunduru və 8 hektar tütün olmaqla yazlıq əkin aparılmışdır.

Qeyd edək ki, əkin sahələrinin suvarılması üçün 970 ədəd subartezian quyusu, 16 ədəd nasos stansiyası və ümumi uzunluğu 2019 km olan suvarma kanalları istismar olunur. Bu qurğuların saz vəziyyətdə olması daim diqqət mərkəzində saxlanılır. Bu baxımdan, cari ilin 6 ayı ərzində 396 subartezian quyusunun nasosları əsaslı təmir olunmuş, 42 ədəd təzə nasos alınaraq quyulara quraşdırılmışdır. Məhsuldarlığını tamamilə itirmiş 15 subartezian quyusunda əsaslı təmir işləri aparılmışdır.

Rayonda suvarma suyuna ciddi tələbat olan ərazilərdə 31 təzə subartezian quyusu qazılması nəzərdə tutulmuşdur. İlk mərhələdə qazılması nəzərdə tutulmuş 10 ədəd subartezian quyusu artıq istismara verilmişdir. Bundan başqa, rayon ərazisində olan əkin sahələrinin suvarma vəziyyətinin yaxşılaşdırılması məqsədilə Şəmkir Maşın Kanalının çəkilişinin III mərhələsində kəndlərə suvarma suyunun verilməsi üçün tikinti işləri sürətlə davam etdirilir.

Rayonda elektrik təminatında da elə bir problem yaşanmır. Çünki mütəmadi olaraq bu sahədə təmir-bərpa işləri aparılmaqla köhnəlmiş avadanlıqlar yenisi ilə əvəz edilir. Xüsusilə qış mövsümündə əhalinin elektrik enerjisi ilə davamlı təminatı üçün hələ yay aylarında yenidənqurma işləri görülür. Bu məqsədlə elektrik şəbəkəsinin xidməti ərazisində istismara yararsız ağac dayaqlar metal dayaqlarla əvəz edilmişdir.

Cari ilin ötən dövrü ərzində əhalinin mavi yanacaqla təminatında da xeyli iş görülmüşdür. Bu məqsədlə 4022 paqonmetr yeni qaz xətti çəkilmişdir. Belə ki, "Azəriqaz" İB-nin daxili imkanları hesabına 2024-cü il üzrə əsas fondların əsaslı təmiri proqramına əsasən, Goranboy rayonu Qazaxlar kəndində əhalinin qaz təminatının yaxşılaşdırılması məqsədilə 1825 paqonmetr, Nizami kəndində isə 1547 paqonmetr polad boru quraşdırılmışdır. Bununla da Goranboy rayonu üzrə yaşayış məntəqələrinin 96 faizi qazlaşdırılmışdır. Yuxarı Ballıqaya, Todan, Mənəşli, Erkəc və Börü kəndlərinin qazlaşdırılmasının ilin sonunadək həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Cari ilin ötən dövrü ərzində rayon ərazisində olan yolların yenidən qurulması və cari təmir işləri də uğurla həyata keçirilmişdir. Belə ki, 12 kilometr respublika əhəmiyyətli, 143 kilometr yerli əhəmiyyətli olmaqla 155 kilometr ümumi istifadədə olan avtomobil yollarına və bu yollar üzərində olan yol qurğularına xidmət göstərilmişdir. 2024-cü ilin ilk 6 ayı ərzində yollarda hərəkətin təhlükəsizliyini və fasiləsizliyini təmin etmək üçün xeyli iş görülmüşdür. Avtomobil yollarında 125 kubmetr məsafədə suötürücü borular təmizlənmiş, ümumilikdə 11,3 kilometr çiyin bərkitmə işləri aparılmış, çınqıl örtüklü avtomobil yollarında 35755 kvadratmetr yolda çala-çuxurlarda təmiri işləri yerinə yetirilmişdir. Bundan başqa, körpü məhəccərləri və yol elementlərinin rənglənməsi, körpü səkilərinin palçıqdan təmizlənməsi və körpü keçidləri yerləşən ərazilərdə çay məcralarının təmizlənməsi işləri yerinə yetirilmişdir. Bundan əlavə, Qızılhacılı qəsəbəsində şəhid Milli Qəhrəman Yunis Əliyevin adını daşıyan və uzunluğu 1,2 kilometr, Əlırzalı kəndində şəhid Əzim Şahmalıyevın adını daşıyan 800 metr uzunluğunda olan küçələrə asfalt örtük çəkilmişdir.

Cari ilin ötən dövründə rayonda əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində də xeyli iş görülmüşdür. Belə ki, 6 ay ərzində iş üçün məşğulluq mərkəzinə müraciət edən 853 nəfərdən 236 nəfəri daimi işlə, 10150 nəfər mövsümi işlə təmin olunmuş, 211 nəfər isə qeydiyyata alınmışdır.

Həmişə olduğu kimi, cari ilin ötən dövrü ərzində şəhid ailələrinin üzvləri və qazilər, eləcə də müharibə veteranlarının sosial-məişət şəraiti diqqət mərkəzində saxlanılmışdır. 6 ay ərzində 4 şəhid ailəsi, 4 Qarabağ müharibəsi əlili, 2 gözdən əlil, 10 ümumi səbəbdən əlil mənzil növbəsinə alınmışdır. Rayon icra hakimiyyətinə müraciət etmiş 17 nəfər imtiyazlı şəxsin mənzil növbəsinə alınması ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində olan Sosial Xidmətlər Agentliyinə sorğu göndərilmişdir. Bundan başqa, şəhid ailələrinin və qazilərin sosial qayğılarının öyrənilməsi, onların problemlərinin həlli istiqamətində edilən müraciətlər diqqət mərkəzində saxlanılmışdır. Rayon icra hakimiyyəti rəhbərliyinin təşəbbüsü ilə 61 şəhid ailəsi və qazi ziyarət olunmuş, daxili imkanlar hesabına müvafiq maddi yardımlar edilmişdir. Həmçinin bütün şəhidlərimizin məzarları onların ailə üzvləri ilə birgə ziyarət olunmuşdur. Birinci Qarabağ müharibəsi iştirakçıları və Milli Qəhrəmanlar da unudulmamışdır. Milli qəhrəmanların anım günlərində ailələri ziyarət edilmiş, onların ehtiyac və problemlərinin həlli istiqamətində işlər görülmüşdür.

Şəhid ailələri və müharibə iştirakçıları ilə keçirilən görüşlərdə edilən müraciətlər diqqətlə dinlənilərək aidiyyəti qurumlara yönləndirilmişdir. İndiyədək həmin müraciətlərin bir qismi öz həllini tapmışdır. Bundan əlavə, şəhid, qazi və aztəminatlı ailələrinin rayon icra hakimiyyətinə ünvanladıqları müraciətlər araşdırılaraq maddi ehtiyaclarının qarşılanması istiqamətində iş görülmüş, bu məqsədlə onlara 19500 manat maddi yardım edilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Birinci yarımildə "Bakı KOB evi"ndə sahibkarlara 158 minədək xidmət göstərilib

**Cari ilin yanvar-iyun aylarında sahibkarlar "Bakı KOB evi"nə daha çox yükdaşımaları həyata keçirmək üçün icazə blankı, fərqlənmə nişanı, taxoqraf kartları və mənşə sertifikatının alınması, vergi və gömrük məsələləri, ionlaşdırıcı şüa mənbələrindən istifadə ilə əlaqədar elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə dair icazə üçün müraciət ediblər.**

AZƏRTAC Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə istinadla xəbər verir ki, sahibkarların lisenziya və icazələrin, qida təhlükəsizliyi sertifikatının alınması, yer təkinin istifadəyə verilməsi məqsədilə hərrac sənədləşdirilməsi, dövlət sosial sığorta sistemində fərdi uçotun həyata keçirilməsi üzrə müraciətləri də üstünlük təşkil edir.

Müvafiq xidmətlər sahibkarlara Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi - 121 min 122 (76,69 faiz), Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti - 13 min 196 (8,36 faiz), Dövlət Vergi Xidməti - 2793 (1,77 faiz), Dövlət Gömrük Komitəsi - 1113 (0,7 faiz), Fövqəladə Hallar Nazirliyi - 586 (0,37 faiz), Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) - 473 (0,30 faiz), İqtisadiyyat Nazirliyi - 434 (0,27 faiz), Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi - 288 (0,18 faiz), Qida Təhlükəsizliyi Agentliyi - 141 (0,09 faiz), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 70 (0,04 faiz) tərəfindən göstərilib. Bu, 10 dövlət qurumu tərəfindən göstərilmiş xidmətlər "Bakı KOB evi"nə edilmiş ümumi müraciətlərin 88,8 faizini (140,216) təşkil edir.

Ümumilikdə isə "Bakı KOB evi"ndə 50-yə yaxın dövlət və özəl qurum tərəfindən sahibkarlara biznes fəaliyyəti üçün zəruri olan "G2B" və "B2B" xidmətləri göstərilir. Təkcə 2024-cü ilin yanvar-iyun aylarında "Bakı KOB evi"ndə sahibkarlara 157 min 940 xidmət göstərilib ki, bunun 140 min 556-sı dövlət, 17 min 384-ü isə özəl qurumlar tərəfindən təmin olunub.

## Azərbaycanda sığortalanan əkin sahələrinin həcmi artır

**Azərbaycanda aqrar sığorta mexanizminin əhatə etdiyi əkin sahələrinin həcmi artır. Aqrar Sığorta Fondundan AZƏRTAC-a verilən məlumata əsasən, cari ilin yanvar-iyun aylarında ölkədə 384 min hektar əkin sahəsi sığortalanıb.**

Ötən ilin eyni dövrü ilə müqayisədə sığortalanan əkin sahələri 58 min hektar və ya 18 faiz artıb. Bu dövrdə ən çox sığortalanan kənd təsərrüfatı bitkiləri buğda, arpa, qarğıdalı, pambıq, eləcə də çəltik, şəkər çuğunduru, fındıq və nar bağları olub.

Sığortalı sahələrdə artım bütün bitkilər üzrə qeydə alınıb. Belə ki, sığortalanan pambıq sahələri 2,3 dəfə, çəltik əkinləri 2,2 dəfə, nar bağları 4,5 dəfə, arpa sahələri təqribən 2 dəfə, buğda sahələri isə 1,3 dəfə artıb.

Bu ilin yanvar-iyun aylarında 11 milyon 183 min manat aqrar sığorta haqları toplanıb. Bu vəsaitin 10 milyon 189 min manatı bitkiçilik sığortası üzrə ödənilib və əkin sahələrinə ümumilikdə 418 milyon manat sığorta təminatı verilib. Ümumilikdə isə sığortalanan təsərrüfatlar üzrə verilmiş sığorta təminatının həcmi 430 milyon manata yaxın olub.

## Dostluq Parkının açılışının bir illiyi qeyd edilib



**Lənkəran şəhəri ilə ABŞ-nin Monterey şəhəri arasında mövcud olan "qardaşlaşmış şəhərlər" əlaqələri çərçivəsində Lənkəran rayonunun İstisu qəsəbəsində salınmış Dostluq Parkının açılışının birilliyi ilə bağlı tədbir keçirilib.**

Tədbirdə Lənkəran Şəhər İcra hakimiyyətinin başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ülviyyə Əliyeva, ABŞ-nin Azərbaycandakı səfirliyinin ictimai işlər üzrə attaşesi Melissa Şauqnessi, Lənkəran-Monterey Dostluq Assosiasiyasının həmsədri Nensi Selfric və Azərbaycan Diplomatik Akademiyasının müəllimi Şəfəq Mehralıyeva iştirak ediblər.

Çıxış edən natiqlər bildiriblər ki, 2011-ci ildən qardaşlaşan Lənkəranla Monterey şəhərləri arasında ötən müddət ərzində qarşılıqlı əlaqələrin hərtərəfli dinamik inkişafı daim diqqət mərkəzində olub, münasibətlərin daha da yaxınlaşması üçün mütəmadi ünsiyyət saxlanılıb. Qeyd olunub ki, adət-ənənələrin, mədəni münasibətlərin, iqtisadi əlaqələrin, habelə Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə dolğun şəkildə çatdırılmasında şəhərlərin qardaşlaşmasının mühüm rolu var. Şəhərlər arasındakı qarşılıqlı əlaqələrin hərtərəfli dinamik inkişafı və toplumlar arasındakı yaxınlaşma Azərbaycan diasporunun fəaliyyətinə müsbət təsir göstərir və Lənkəranla Monterey şəhərlərinin əlaqələrinin davamlılığı və inkişafı bu baxımından nümunə təşkil edir.

Çıxışlardan sonra Lənkəran şəhər Mədəniyyət Mərkəzinin "Nənələr" xalq folklor kollektivinin və mərkəzin solistlərinin ifasında bədii hissə baş tutub, bir-birindən maraqlı ifalar təqdim olunub.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Füzulidə növbəti əmək yarmarkası keçiriləcək

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi Füzuli şəhərində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi ilə növbəti əmək yarmarkası təşkil edəcək.**

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, yarmarka avqustun 6-da saat 11:00-da Füzuli şəhərindəki Mirzə Uluqbəy adına 1 saylı tam orta məktəbin inzibati binasında keçiriləcək.

Tədbirdə işsiz və işaxtaran şəxslərə 18 müəssisə tərəfindən 300-ə yaxın vakansiya təqdim ediləcək.

Onlara agentliyin icra etdiyi aktiv məşğulluq proqramları, layihələr barədə ətraflı məlumatlar da veriləcək.




## Naxçıvanda aqrar subsidiyalar çıxarış əsasında veriləcək

**"Naxçıvan Muxtar Respublikasında 2025-ci ildən aqrar sahədə subsidiyalar daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı əsasında veriləcək". AZƏRTAC xəbər verir ki, bu sözləri muxtar respublikanın kənd təsərrüfatı nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Xəyalə Dadaşova Kəngərli rayonunda kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən şəxslər üçün keçirilən maarifləndirici tədbirdə söyləyib.**





Nazir müavini əkin, məhsul, toxum, ting, meyvə və üzüm bağlarının salınmasına görə verilən subsidiyalar, o cümlədən payızlıq əkinlər üçün hazırlığın aparılması, sertifikatlı toxumlardan istifadənin məhsuldarlığa müsbət təsirləri, əkinlərdə aqrotexniki qaydalara riayət olunması barədə ətraflı söhbət açıb, fermerlərin torpaq üzərində mülkiyyət hüquqlarının rəsmiləşdirilməsinin vacibliyini diqqətə çatdırıb.

Bildirilib ki, dövlət dəstəyindən fermerin yararlana bilməsi üçün torpaq üzərində mülkiyyət hüququnu təsdiqləyən sənədlərin alınması vacibdir. Bu məsələ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 7 oktyabr 2021-ci il tarixində imzalanan "Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı bəzi məsələlər haqqında" fərmanda öz əksini tapıb. Fərmana əsasən, 2025-ci il yanvarın 1-dən etibarən əkin sahələrinin istifadəçilərinə aqrar sahədə subsidiyalar torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüquqlarına dair daşınmaz əmlakın dövlət reyestrindən çıxarış əsasında veriləcək. Bu səbəbdən vətəndaşlar torpaq üzərində mülkiyyət hüquqlarını rəsmiləşdirməlidirlər. Əks təqdirdə fermerlərin növbəti ildən subsidiya əldə edə bilməsi mümkün olmayacaq.

Naxçıvan Muxtar Respublikasında taxıl əkinlərinin mövcud vəziyyətini təhlil edən Xəyalə Dadaşova bildirib ki, 2023-cü ildən başlayaraq keyfiyyətli əkin aparılması əsas istiqamətlərdən biri olaraq müəyyənləşdirilib. Bu səbəbdəndir ki, ötən illə müqayisədə bu il muxtar respublikada üzrə taxılın məhsuldarlığında artım müşahidə olunur. Belə ki, ötən il taxıl istehsalı üzrə orta məhsuldarlıq 24,9 sentner olduğu halda, cari ildə hazırkı orta məhsuldarlıq 28,4 sentner təşkil edir.

Payızlıq taxıl əkinlərinə hazırlıq məsələləri barədə qeyd olunub ki, cari ildə muxtar respublika ərazisinə düşən yağıntı miqdarının artması kifayət qədər su ehtiyatının yaranmasına səbəb olub. Bu da imkan verir ki, növbəti mövsümdə əkin sahələri genişləndirilsin.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini Müslüm Cabbarzadə torpaq üzərində mülkiyyət hüququnun təsdiqlənməsinin əhəmiyyəti və qaydaları haqqında danışıb. Rəis müavini qeyd edib ki, dövlət başçısının imzaladığı müvafiq fərmanın icrası ilə bağlı ötən 4 il ərzində xidmət tərəfindən lazımi addımlar atılıb, muxtar respublikanın bütün bölgələrində maarifləndirici tədbirlər keçirilməsi ilə yanaşı, səyyar xidmətlər də təşkil olunub. Hazırda da bu proses davam etdirilir. Vətəndaşlar torpaq üzərində mülkiyyət hüququnu təsdiqləmək üçün bu xidmətlərdən yararlana, həmçinin Əmlak Məsələləri Dövlət Xidmətinin yerli bölmələrinə müraciət edə bilərlər.

Qeyd edək ki, növbəti belə tədbir avqustun 6-sında Sədərək rayonunda keçiriləcək.






# Gənclik






● Dövlət qayğısı



## Gənclər dövlətin etimadını doğrultmağa çalışırlar

**Bu gün gənclərin sağlam böyüməsinə, yaxşı təhsil almasına, dünyagörüşünün artırılmasına və idarəetmə qurumlarında fəaliyyətinə dövlətin dəstəyi yüksək səviyyədədir.**

Bu gün gənclərimiz - idmandan tutmuş Vətən müharibəsinə qədər həyatın bütün sahələrində qazandıqları uğurlara, nailiyyətlərə və tarixi qələbələrə görə qürur, iftixar mənbəyinə çevriliblər. Elə bu günlərdə Fransada keçirilən XXXIII Paris Yay Olimpiya Oyunlarında Azərbaycan gəncliyinin nümayəndələri - cüdoçularımız Hidayət Heydərov və Zelim Kotsoyev parlaq qələbələri ilə Vətənə Azərbaycan boyda sevinc yaşatmışlar.

44 günlük Vətən müharibəsində isə Azərbaycan gəncləri böyük şücaət göstərdilər. Torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnən Vətən müharibəsi Azərbaycan xalqının milli həmrəyliyinin, monolit birliyinin təntənəsi oldu. Gənclərimiz Vətən müharibəsindən şərəflə çıxdılar, dövlət başçısının etimadını layiqincə doğrultdular. Onların hamısı döyüşlərdə qəhrəmancasına iştirak etdilər. Bütün dünyaya Azərbaycan gəncinin nəyə qadir olduğunu bir daha göstərdilər. Hər biri öz cəsurluğu, igidliyi ilə vətənpərvərlik salnaməsi yazdı, qələbə dolu döyüş yolu ilə dillərdə dastana döndü. Şəhidlərimizin xatirəsi hər zaman böyük ehtiramla anılır. Bütövlükdə, bu müharibədə gənclərimiz tarix yazdı.

Bu məqamda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin böyük uzaqgörənliklə dediyi sözləri xatırlamamaq mümkün deyil: "Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifə düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır, siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, quranlarısınız, inkişaf etdirənlərisiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq".

Ulu Öndərin tövsiyələrini özlərinin həyat amalına çevirən Azərbaycan gəncləri onlara göstərilən etimadı doğrultmağa çalışırlar. Onlar ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsində, intellektual səviyyəli potensial kadr hazırlığında, dövləti idarəetmə qurumlarında aparıcı qüvvəyə çevrilmişlər.

Hazırda bu ilin noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ciddi hazırlıq görülür. Azərbaycan gəncləri qlobal əhəmiyyətli COP29-un təşkilində də mühüm rol oynayacaqlarını qarşıya məqsəd qoymuşlar. Odur ki, bir sıra ali məktəblərdə COP29-la bağlı "yaşıl könüllülər" layihələrinə start verilib, bu adla müxtəlif qruplar yaradılır, proqramlar icra olunur. Ölkəmizdə gənclərdən ibarət könüllülər ordusu mövcuddur. Onlar ölkəmizdə keçirilən qlobal tədbirlərdə dəfələrlə iştirak ediblər. Həm ali məktəblərdə formalaşdırılmış, həm də müxtəlif sahələri təmsil edən tələbə-gənclər könüllü olaraq bu sahədə böyük təcrübə qazanıblar. Ekspertlər hesab edirlər ki, ali məktəb tələbələri COP29 tədbirində könüllü kimi öz töhfələrini verəcəklər. Çünki elə bir ali məktəb yoxdur ki, orada COP29 öncəsi işlər aparılmasın və tələbələr bu prosesə səfərbər olunmasın. İnam var ki, Azərbaycan könüllüləri onlara olan etimadı COP29-da yüksək səviyyədə doğruldacaqlar. Artıq bir çox ali təhsil müəssisələrində tələbələrə COP29-la bağlı müvafiq məlumatlar verilir. Digər tərəfdən, bu beynəlxalq tədbirlə əlaqədar bilgiləri onlar həm kütləvi informasiya vasitələrindən, həm də ali məktəblərdə tədris edilən dərslər zamanı öyrənirlər. Həmçinin müəyyən seminarlar təşkil edilir.

Bu gün gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətini də uğurla davam etdirir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması, inkişafı üçün yaradılan şərait bu sahəyə böyük diqqətin nəticəsidir. Dövlətin gənclərlə bağlı siyasətinin uğurla həyata keçirilməsində bu mühüm addımın böyük rolu vardır.

Dövlət başçısının gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun, dövlət idarəçiliyi sistemində iştirakının təmin edilməsi məqsədilə ölkəmizdə 2015-2025-ci illəri əhatə edən Azərbaycan gənclərinin İnkişaf Strategiyası uğurla icra olunmaqdadır. Gəncliyimiz azad düşünür, demokratik cəmiyyətdə yaşayır, məhdudiyyətsiz olaraq fəaliyyət göstərir. Bütövlükdə, ölkə rəhbərliyinin həyata keçirdiyi məqsədyönlü və ardıcıl siyasət nəticəsində gənclər demokratikləşmə prosesində, mədəniyyət, incəsənət, elm və idman sahəsində inamla irəliləyir, zəngin mədəni irsimizin qorunub saxlanması və inkişaf etdirilməsi yolunda mühüm addımlar atırlar.

Prezident İlham Əliyev qloballaşma əsrində dünya elminə, təhsilinə inteqrasiyanı vacib sayaraq azərbaycanlı gənclərin xaricdə təhsil almasına ciddi əhəmiyyət verir. Burada məqsəd, yeni düşüncəli, milli ruhlu, vətənpərvər gənclik formalaşdırmaq, dövlət idarəçiliyini yüksəkixtisaslı kadrlarla təmin etməkdir. Dövlət başçısının fərman və sərəncamlarına əsasən, ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün də zəruri tədbirlər həyata keçirilir.

Prezident İlham Əliyev demişdir: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram". Bu yüksək etimada və etibara cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə səylə çalışır, öz siyasətində onlara arxalanan dövlət başçısının etimadını həmişə yüksək səviyyədə doğrultmağa çalışırlar.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

● Ölməzliyə qovuşanlar

## Canını Vətənə fəda edən igid

**O, dünayaya göz açanda Azərbaycanın Qarabağını və Şərqi Zəngəzurunu qəsbkar ermənilər ələ keçirmişdilər. 1994-cü il mayın 12-də iki ölkə - Azərbaycan və Ermənistan atəşkəs sazişi imzalamışdılar. Ancaq işğalçı ölkə sazişə əməl etmirdi. Ermənistanın silahlı qüvvələri Azərbaycan Ordusunun mövqelərini və mülki əhalisinin yaşayış məntəqələrini intensiv atəşə tuturdular. Birinci Qarabağ müharibəsində sinəsinə dağlar çəkilmiş Azərbaycan xalqının övladları yenə də şəhid olurdular.**



Qarabağın, Şərqi Zəngəzurun Ermənistanın işğalında qaldığı illərdə doğulan yurdumuzun oğulları qəhrəman babaları kimi vətənpərvərlik ruhunda böyüyürdülər. Onların bir çoxu işğal tarixi yaşlarından böyük olan o əzəli torpaqlarımızı azad etmək arzusu ilə hərbçi olurdu. Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı Kərəm Həsənov kimi...

Kərəm 1996-cı il yanvar 1-də Gəncə şəhərində dünyaya gəldi. Ailədə iki uşaq - bir bacı, bir qardaş idilər. Onu Gəncə şəhərində 1 saylı bağçaya apardılar. Məktəbəqədər təhsilini də orada aldı. 2002-ci ildə Gəncə şəhəri Mir Cəlal Paşayev adına 39 saylı tam orta məktəbə getdi. Məktəb illərində hərbi dərslərə xüsusi maraq və fəallıq göstərməsi onun daxili dünyasından xəbər verir, arzularını, məqsədini bəlli edirdi. Kərəm Həsənov məktəbdaxili hərbi qrupa - "Şahinlər" qrupuna üzv oldu. Hərbi təlimlərdə iştirak etdi. İdmana da marağı böyük idi. Bu sahədə də uğurlara nail oldu. Kikboksinq üzrə 12-13 yaşlı idmançılar arasında "Şəhər çempionatında" 1-ci yeri qazandı.

Orta məktəbi 2013-cü ildə bitirdi. Qəlbində seçib bağlandığı hərbçi peşəsini mükəmməl öyrənmək üçün Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil oldu. 2017-ci ildə təhsilini leytenant rütbəsi ilə tamamladı. Azərbaycanın bir sıra şəhər və rayonlarında - Bakıda, Bərdədə, Goranboyda, Mingəçevirdə, Ağcabədidə, Beyləqanda, Qubadlıda hərbi xidmətini məsuliyyətlə yerinə yetirdi. Tank komandiri oldu. O, 2008-ci il iyunun 26-da, Azərbaycan Silahlı Qüvvələri günündə "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə təltif olundu. 2020-ci ilin həmin günü isə Kərəm Həsənov baş leytenant rütbəsinə layiq görüldü.

2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsində sinəsini düşmən güllələrinə sipər edən qəhrəman Azərbaycan oğullarından biri də o oldu. Kərəm Suqovuşanın, Ağdam rayonunun və kəndlərinin işğaldan azad olunmasında fəal iştirak etdi.

İkinci Qarabağ müharibəsində Suqovuşan istiqamətində gedən döyüşlərdə düşmənin keçilməz səddini aşmaq tapşırığı verildi. Kərəm Həsənov heyət üzvləri ilə birgə tapşırığı uğurla yerinə yetirdi. Böyük rəşadətlə həmin səddi keçdilər. Onlar döyüşlərdə çox ağır vəziyyətlərlə üzləşdilər. Birlikdə mühasirəyə də düşdülər. Kərəm Həsənov qəhrəmanlıq göstərərək heyət üzvlərini sağ-salamat çıxara bildi.

Baş leytenant Kərəm Həsənov Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə "Döyüşdə fərqlənməyə görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olundu.

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanda Komando Ordu Birliyi yaradıldı. 2022-ci ilin sonlarında Kərəm Həsənov da Komando briqadasına qoşuldu. O, hərbi fəaliyyətini Qubadlı rayonunun Muradxanlı kəndində davam etdirdi.

Azərbaycan Silahları Qüvvələrinin 2023-cü ildə apardığı lokal xarakterli antiterror tədbirlərində baş leytenant Kərəm Həsənov da iştirak etdi. Bir neçə postun düşməndən geri alınmasında böyük xidmət göstərdi. Ölkəsinin ərazi bütövlüyünün bərpa edilməsi uğrunda döyüş tapşırıqlarını yerinə yetirərkən sol qolundan güllə yarası aldı. Yaralı vəziyyətdə də vəzifə borcunu şərəflə icra edirdi. Son nəfəsinədək qəhrəmancasına vuruşdu. Kərəm Həsənov 2023-cü il sentyabrın 20-də Xocavənd rayonunda şəhid oldu. Boya-başa çatdığı Gəncə şəhərində yerləşən Şəhidlər xiyabanında torpağa tapşırıldı.

Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı Kərəm Həsənov şəhidlik məqamına ucalanda qızı Rüqəyyə 1 yaş 8 aylıq idi.

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Kərəm Həsənov ölümündən sonra "3-cü dərəcəli Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" medalı ilə təltif olundu.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Ağstafalı gənclər şəhid anasına dəstək olmuşlar

**Ağstafa rayonunun Kolxəlfəli kəndindən olan 2-ci Qarabağ müharibəsi şəhidi Asif Nəsir oğlu Mədədovun anası ağstafalı gənclər tərəfindən ziyarət olunaraq, ailəyə məxsus fərdi yaşayış evində nəcib aksiya keçirmişlər.**



Aksiya çərçivəsində gənclər Sona ananın mənzilində və həyətində ev, bağ işlərinə yaxından kömək göstərmiş, ağaclara və yaşıllıqlara qulluq etmişlər. Aksiya fəallarından Şəfəq Böyükkişiyeva bildirib ki, əsas məqsəd Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkəmizdə şəhid ailələrinin üzvlərinə, qazilərə, müharibə iştirakçılarına göstərdikləri yüksək diqqət və qayğıya dəstək vermək, vətəndaşlıq borclarını yerinə yetirməklə gəncləri bu cür aksiyalara cəlb etməkdir.

Şəhid anası Sona Mədətova gənclərə minnətdarlıq edərək diqqətə çatdırmışdır ki, bir oğlunun Vətən uğrunda şəhid olması və digər oğlu Məhəmməd Mədədovun Vətən müharibəsi qazisi olması ilə böyük qürur hissi keçirir. O, gənclərin bu nəcib addımını dəyərləndirmiş, şəhid ailələrinin üzvlərinə göstərilən yüksək dövlət qayğısına görə dərin minnətdarlığını bildirmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

● İstedadlar

## "Musiqi mənim həyatımdır"

**Fərid Əzizli musiqiçidir. Hələ kiçik yaşlarından muğama, milli vokal sənətinə maraq göstərib. Bu maraq addım-addım onu musiqi dünyasına yaxınlaşdırıb. Şirin, ürəyəyatımlı, məlahətli səsi olan Fərid xalq mahnılarımızı, muğamlarımızı böyük məharətlə ifa edir.**



Ondan səsinin nə vaxt fərqli bir səsi olduğunu bildiyini soruşanda bir anlıq fikrə getdi. Ötənləri xatırlayıb dedi ki, səsimin başqalarından fərqli olduğunu hələ kiçik yaşlarımdan bildim. Bağçada tərbiyəçi-müəllimlər bizə mahnılar oxutdururdular. Uşaqlarla bərabər mən də həvəslə öyrədilən mahnıları ifa edirdim. Oxuduqca da musiqiyə həvəsim, marağım artırdı. Tərbiyəçi-müəllimlərin də səsimdən xoşları gəlirdi. Xatırlayıram ki, ilk oxuduğum "Azərbaycan oğluyam" mahnısı idi. Elə indi də həmin mahnını böyük şövqlə oxuyuram.

Hələ kiçik yaşlarından musiqi dünyası Fəridin qarşısında qapılarını geniş açıb. 2004-cü il fevralın 13-də Bakı şəhərində dünyaya göz açan Fərid 2010-cu ildə 215 nömrəli orta məktəbə gedib. O, musiqi dünyasından da uzaq düşməyib. Elə həmin ildən də A.İsgəndərov adına mədəniyyət sarayında xanəndəlik üzrə musiqi təhsili almağa başlayıb. 2015-ci ildə bu mədəniyyət sarayındakı musiqi təhsilini uğurla başa vuraraq müsabiqə yolu ilə Tofiq Quliyev adına 12 nömrəli onbirillik musiqi məktəbinə qəbul olub. Fərid Əzizli 2021-ci ildə həm orta məktəbi, həm də musiqi məktəbini bitirib. İmtahanlardan uğurla keçərək Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Musiqi fakültəsinin xanəndə ixtisasına qəbul olub. Hazırda 4-cü kursda təhsilini uğurla davam etdirir.

İstedadlı gənc olan Fərid Əzizli hələ orta məktəbdə oxuduğu illərdə bir çox respublika və beynəlxalq müsabiqə və festivallarda, konsert proqramlarında iştirak edib, uğurlar qazanıb. Musiqimizi ölkəmizdən uzaqlarda da təbliğ edib. 2017-ci ildə 13 yaşında Gürcüstanın Barjomi şəhərində keçirilən 6-cı beynəlxalq "Hormania" festivalında iştirak edib. Festvaldakı uğurlu çıxışına görə laureat adını qazanıb. 2019-cu ildə Ukraynada keçirilən 1-ci beynəlxalq incəsənət müsabiqəsində 1-ci yerə layiq görülüb və diplomla mükafatlandırılıb. 2020-ci ildə Rusiya Federasiyasında keçirilən "Yujnaya papsodiya" beynəlxalq incəsənət müsabiqəsində Qran-pri mükafatı qazanıb. 2021-ci ildə "TÜRKSOY" Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin təşkil etdiyi "TÜRKSOY" II Beynəlxalq Tələbə Tamaşaları festivalında fəal iştirakına görə sertifikatla təltif olunub.

Musiqi tariximizdə dərin izlər qoymuş hansı müğənnilərdən bəhrələndiyini, hansı sənətkarlara rəğbət bəslədiyini soruşanda Fərid dedi ki, musiqiçilərimizin hamısına böyük sevgi və hörmətlə yanaşıram. "Musiqi tariximizdə öz sözünü demiş müğənnilərdən Xan Şuşinskidən, Seyid Şuşinskidən, Alim Qasımovdan, Zeynəb Xanlarovadan, Qulu Əsgərovdan, Əlibaba Məmmədovdan, Hacıbaba Hüseynovdan, Şövkət Ələkbərovadan, eləcə də milli vokal sənətinin korifeyləri Rəşid Behbudovdan, Hüseynağa Hadıyevdən, Mirzə Babayevdən və başqalarından bəhrələnirəm. Musiqi dünyasının sirlərinə daha da dərindən vaqif olmağa çalışıram. Çünki musiqi mənim həyatımdır".

Fəriddən bu günə qədər qazandığı uğurlara görə kimə borclu olduğunu soruşanda minnətdarlıq hissi ilə danışdı. Dedi ki, qazandığım uğrulara görə müəllimlərim olmuş respublikanın Əməkdar artistləri İsmayıl Ələkbərova, Zakir Əliyevə, həmçinin Ayşən Eminliyə borcluyam. Bu insanlar zaman-zaman musiqini mənə sevdiriblər və öyrədiblər. Xanəndə kimi formalaşmağımda xeyli əziyyət çəkiblər.

Fərid hələ çox gəncdir. Onu qarşıda yeni-yeni sınaqlar gözləyir. İnanırıq ki, istedadlı gənc müğənni bu sınaqlardan uğurla keçəcək, musiqimizi dünyada həm təbliğ edəcək, həm də sevdirəcək. Qazanacağı uğurları ilə xalqımıza böyük sevinc bəxş edəcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## "Mənim hüquqlarım" adlı təşviqat avtobusu Tovuzda

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən regionlarda yaşayan uşaqların asudə vaxtının səmərəli təşkili və maraqlarına toxunan mövzularda maarifləndirilməsi məqsədilə keçirilən "Mənim hüquqlarım" təşviqat avtobusunun növbəti dayanacağı Tovuz rayonu olmuşdur.**



Təşviqat avtobusu 125 uşağın iştirakı ilə rayonun Ağbulaq, Çatax, Böyük Qışlaq, Çeşməli və Qəribli kəndlərində olmuşdur. Məqsəd "Uşaq hüquqları" və "Uşaq inkişafı" mövzularında təlimlər keçirməkdir. Təlimlər zamanı Dövlət Komitəsinin Uşaq məsələləri şöbəsinin əməkdaşı Bahar Həsənli və Uşaq Səfirlər Məclisinin nümayəndələri Mətləb Orucov, Ayan Əhmədova, Musab Məmmədli və Fatimə Fətəliyeva tərəfindən interaktiv oyunlar təşkil olunmuş, müzakirələr aparılmışdır.

Təlimlərin sonunda uşaqlara müzakirə olunan mövzularla bağlı maarifləndirici çap materialları və müxtəlif mövzularda bədii kitablar paylanmışdır.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

## "Müasir dövrün səriştələri" mövzusunda seminar keçirilib

**"Gənclər Yaşıl Dünya Naminə" Diaspor Gənclərinin V Yay Düşərgəsində "Müasir dövrün səriştələri" adlı seminar keçirilib.**



Dövlət Komitəsindən bildirilib ki, peşəkar təlimçi-ekspert Anar Həsənov Azərbaycanda səriştə əsaslı təlim proqramının inkişafına və həyata keçirilməsinə dəstək vermək üçün gerçəkləşdirilən layihələrdən, habelə kreativ səriştələrin formalaşmasından, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsinin əhəmiyyətindən bəhs edib.

Seminarda mövzu ilə bağlı geniş fikir mübadiləsi aparılıb və düşərgə iştirakçılarını maraqlandıran suallar təlimçi tərəfindən cavablandırılıb.

XXXIII Paris Yay Olimpiya Oyunları

# Parisə fərəhlə, Bakıya zəfərlə

# "QIZIL OĞLANLAR"

## Dünya və Avropa çempionu olan cüdoçularımız həm də Olimpiya Oyunlarında qalib gəldilər







**Cüdo ölkəmizdə ən populyar idman növlərindən biri olmaqla yanaşı, kütləvilik baxımından ön sıralarda dayanır. Tarixi kökü olan bu idman növü Azərbaycanda da inkişaf etməkdədir. Azərbaycan cüdo məktəbinin yetirmələri olan Olimpiya, dünya, Avropa çempionları iştirak etdikləri bütün yarışlarda rəqibləri üçün ən ciddi və ən çox ehtiyat edilən idmançılar sayılırlar. Yəni cüdoçularımız iştirak etdikləri müxtəlif turnirlərin favoritləri sırasında göstərilirlər.**

Fransada təşkil olunan XXXIII Yay Olimpiya Oyunlarında medal gözlədiyimiz idman növlərindən biri də cüdo idi. Sevindirici haldır ki, başa çatan cüdo yarışlarının yekununda Hidayət Heydərov və Zelim Kotsoyev ölkəmizin aktivinə qızıl medallar yazdırdılar. Maraqlısı odur ki, cüdoçularımız iki il ərzində həm Avropa, həm dünya, həm də Olimpiya çempionu olmaqla "qızıl het-trik"ə imza atdılar.

Parisdə ilk olaraq Hidayət Heydərov medal həsrətinə son qoydu. Dünya çempionumuz kolleksiyasına daha bir medal əlavə etdi. Özü də finalda fransalı həmkarını məğlub etməklə...

73 kiloqram çəkidə mübarizə aparan dünya reytinqinin birincisi Hidayət Heydərov mübarizəyə 1/8 finaldan başlayıb. Onun rəqibi 1/16 finalın Tohar Bitbul (İsrail) - Reduan Masud Dris (Əlcəzair) cütündə müəyyənləşməli idi. Lakin afrikalı bu qarşılaşmaya çıxmaqdan imtina edib. Hidayət Olimpiadaya Bitbulla görüşlə start verib. O, rəqibini məğlub edərək, mərhələ adlayıb.



H.Heydərov 1/4 finalda Artur Marqelidon (Kanada) ilə qarşılaşıb. Gərgin keçən qarşılaşma həmyerlimizin qələbəsi ilə bitib. İpponla qalib gələn Hidayət yarımfinalda kosovalı Akil Qyakova ilə üz-üzə gəlib. Bu mərhələdə də rəqibini üstələyən cüdoçumuz adını finala yazdırıb. Həlledici mərhələdə isə rəqib fransalı Joan-Benjamin Qaban idi. Çətin keçən qarşılaşmada rəqibinə ippon fəndi ilə qalib gələn Hidayət Olimpiya çempionu oldu. Bununla da, Hidayət Heydərov bir il ərzində həm Avropa, həm dünya, həm də Olimpiya çempionu olmaqla "qızıl het-trik"ə imza atmış oldu.

Növbəti qürur dolu anları Azərbaycana cüdoçumuz Zelim Kotsoyev yaşadıb. Belə ki, təmsilçimiz Fransanın paytaxtı Parisdə növbəti qızıl medalı qazanaraq, Dövlət himnimizi səsləndirib, bayrağımızı hamıdan yüksəkdə dalğalandırıb.

Azərbaycan millisinin Yay Olimpiya Oyunlarında medal ümidlərindən sayılan və 100 kiloqram çəki dərəcəsində yarışan Zelim Kotsoyev 1/8 finalda Polşa idmançısı Pyotr Kuçera ilə qarşılaşıb. Təmsilçimiz ilk görüşündə ipponla qalib gələrək 1/4 finala yüksəlib. Bu mərhələdə onun rəqibi israilli Peter Paltçik olub. Dünya çempionumuz bu görüşü də qalib başa vuraraq adını yarımfinala yazdırıb.

Cüdoçumuz finala gedən yolda özbəkistanlı Muzaffarbek Turoboyevlə qarşılaşıb. Rəqibinə qalib gələn idmançımız finala çıxıb. Kotsoyev çempionluq görüşündə gürcüstanlı İlya Sulamanidze ilə güləşdən qalib ayrılaraq Olimpiya çempionu adına sahib olub.

Zelim Kotsoyev hazırda öz çəkisində dünya reytinqində 1-cidir. Osetiyalı milliləşdirilmiş legionerimiz 2023-cü ilin noyabrında Avropa, 2024-cü ilin mayında isə dünya çempionu olub.

Beləliklə, Parisə 9 cüdoçu ilə yollanan Azərbaycan 2 qızıl medal qazanmaqla bu idman növündə Olimpiadanı 2-ci pillədə başa vurub. İlk sırada Yaponiya cüdoçuları qərarlaşıblar (3 qızıl, 1 gümüş, 3 bürünc).

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# "Paris-2024"də evlənmə təklifi

**Paris Yay Olimpiya Oyunlarında maraqlı hadisə yaşanıb.**



Çinli badmintonçu Huanq Yaqionq Parisdə keçirilən Olimpiya Oyunlarının çempionu olduqdan sonra evlənmə təklifi alıb. O, kişi idmançı Jenq Siveu ilə cütlərin badminton yarışında çempion olub. Onlar final görüşündə Cənubi Koreya dueti üzərində qələbə qazanıblar.

Qaliblər medallarla təltif edildikdən sonra həmkarı Li Yuçen Huanqa yaxınlaşaraq, azarkeşlər qarşısında ona evlənmə təklifi edib. Xanım idmançı "bəli" cavabını verib.

# Üzgüçümüz mübarizəni dayandırdı

**Azərbaycan üzgüçüsü Məryəm Şeyxəlizadəxangahın "Paris-2024"də yekun mövqeyi bəlli olub. Təmsilçimiz 50 metr məsafəyə sərbəst üsulla üzmə yarışında təsnifat mərhələsində 35-ci yeri tutub.**

6-cı qrupda finişə 26,76 saniyəyə çatan üzgüçümüz həmin "səkkizlik"də 3-cü yeri tutub. Ümumilikdə isə 79 idmançı arasında ən yaxşı nəticəyə malik 16 üzgüçü yarımfinala adlayıb. Onların arasına düşə bilməyən idmançımız Olimpiadada çıxışını başa vurub.



# Növbəti rekord



**Fransalı üzgüçü Leon Marşan Olimpiadada 4-cü dəfə fəxri kürsünün ən yüksək pilləsində yer alıb. O, 200 metr məsafəyə qarışıq üsulla üzmədə 1-ci yeri tutub.**

22 yaşlı idmançı bundan əvvəl 200 metr məsafəyə brass və batterflyay, eləcə 400 metr məsafəyə qarışıq üsulla üzmədə qızıl medal qazanıb. Marşan hər 4 yarışda həm də yeni Olimpiya rekordunu müəyyənləşdirib.

Leon 1.54,06 nəticə ilə amerikalı Maykl Felpsin 16 illik rekordunu yeniləyib.

# Cokoviç finalda



**Novak Cokoviç "Paris-2024" Yay Olimpiya Oyunlarında tennis yarışlarının finalına vəsiqə qazanıb. Serbiyalı tennisçi 4-cü cəhdində Olimpiadanın finalına yüksələ bilib. O, bundan əvvəl 3 dəfə yarımfinalda mübarizəni dayandırıb. Cokoviç "Pekin-2008", "London-2012" və "Tokio-2020" turnirlərində finalın bir addımlığında uduzub. Novak bu dəfə Lorenso Muzettini (İtaliya) 6:4 və 6:2 hesablı setlərlə məğlub edib.**

**Cokoviç Olimpiadalar tarixində finala yüksələn ən yaşlı tennisçi olub. Novak bu gün finalda ispaniyalı Karlos Alkarasla qarşılaşacaq. Bu tennisçilər iyulun 14-də "Uimbildon Open-2024"ün finalında üz-üzə gəliblər və Alkaras 3:0 hesabı ilə qalib gəlib.**

**Qeyd edək ki, 37 yaşlı idmançı 24 dəfə "Böyük Dəbilqə" yarışlarının qalibi olub. Onun medal kolleksiyasında yalnız Olimpiya qızılı çatışmır.**

# Dımçenko 17-ci oldu

**"Paris-2024"də avarçəkmə yarışları davam edir. Azərbaycan avarçəkəni Diana Dımçenko Olimpiadadakı çıxışını başa vurub.**



2000 metr məsafəyə fərdi avarçəkmədə çıxış edən idmançımız C finalında yarışıb. 1-ci zolaqda çıxış edən təmsilçimiz finişə 5-ci çatıb. O, yekunda 17-ci yeri tutub. Diana məsafəni 7 dəqiqə 35,19 saniyəyə qət edib.

Qeyd edək ki, Diana "Paris-2024"ə bu növdə qatılan yeganə təmsilçimizdir.

# Türkiyə medalçılara qızıl sikkələr verəcək



**Türkiyə mətbuatı "Paris-2024"də qızıl medal qazanan idmançılara veriləcək mükafatlar barədə yazıb. Qeyd edilib ki, çempion olan idmançıların hər birinə rəsmi olaraq min ədəd qızıl sikkə veriləcək.**

Mükafatın ümumi bazar dəyəri 17,5 milyon türk lirəsi və ya təxminən 530 min ABŞ dollarıdır. Gümüş Olimpiya medalı idmançıya ümumi dəyəri 10,5 milyon türk lirəsi və ya 315 min dollar olan 600 qızıl sikkə qazandıracaq. Nəhayət, bürünc medalı qazanan 300 qızıl sikkə alacaq (5,3 milyon türk lirəsi və ya təxminən 158 min dollar).




## Elektromobillər üçün yeni batareya

**"Samsung" şirkəti Seulda keçirilən "SNE Battery Day 2024" konfransı çərçivəsində elektromobillər üçün yeni növ batareya təqdim edib.**

Yeni batareya artıq 6 aydır ki, müxtəlif elektromobil istehsalçıları tərəfindən test edilir.

Şirkətin yeni məhsulu digərlərindən daha yüngül, kompakt ölçülü və təhlükəsizdir. Batareyanın istehsal prosesi olduqca baha olduğu üçün onu ilk növbədə premium elektromobillər əldə edəcək.




Yeni batareyanın enerji sıxlığı saatda 500 vatt təşkil edir. Bu isə müasir elektromobillərin batareyalarındakı enerji sıxlığı göstəricisindən iki dəfə yüksəkdir. Həmin batareyaya malik elektromobil bir dəfə şarj olunandan sonra 1000 km yol qət edə bilər. Üstəlik, sözügedən batareya 80 faiz enerjini 9 dəqiqəyə yığır və onun istifadə müddəti 20 il üçün nəzərdə tutulub.

Yeni batareyanın kütləvi istehsalına 2027-ci ildə start veriləcək.

## Dalğa enerjisi qurğusu istifadəyə verilib

**Dalğa enerjisi üçün dünyada ilk şəbəkəmiqyaslı qurğu istifadəyə verilib. O, dalğaların yaratdığı təzyiqdən istifadə edən bərpaolunan enerji mənbəyidir.**



Məlumatlara görə, dalğaların kinetik hərəkətini enerjiyə çevirən "OE-35" adlı 826 tonluq qurğunun ölçüləri 38 x 18 metrdir. Qurğunun 9 metrdən çox suçəkmə qabiliyyətinə və elektrik enerjisi istehsalında 1,25 MVt-a qədər potensial nominal gücünə malik olduğu bildirilir.

"Ocean Energy USA" şirkəti tərəfindən verilən açıqlamaya görə, 12 milyon dollarlıq layihə ABŞ Energetika və İrlandiya Departamenti tərəfindən maliyyələşdirilir. Cihaz havanı turbindən itələmək üçün dalğalardan istifadə edərək elektrik enerjisi istehsal edir. Turbin elektrik enerjisi yaratmaq üçün yüksəksürətli hava axınından istifadə edərək bir istiqamətdə fırlanır. Geri çəkilən dalğa turbinin eyni istiqamətdə dönməsinə və davamlı olaraq güc istehsal etməsinə imkan verən vakuum yaradır. Müvafiq qaydada hərəkət edən hissələr dəniz suyunun üstündə yerləşir ki, bu da onları böyük dalğalardan və ya korroziyadan qoruyur.

## "Honor"un növbəti smartfonu

**"Honor X" seriyasının yeni smartfonu təqdim edilib. Söhbət "Honor X60i"dən gedir.**

Yeni smartfon böyükölçülü ekranı, "MediaTek" prosessoru və böyükhəcmli batareyası ilə seçilir. O, 90 Hz-lik təsvir yenilənməsinə malik 2412x1080 piksel keyfiyyətli 6,7 düym ölçülü AMOLED ekranla təchiz olunub. Ekranın maksimal parlaqlıq səviyyəsi 2000 nit təşkil edir. Smartfonun gövdəsi sudan qorunma özəlliyinə malikdir. Barmaq izi skanı texnologiyası isə yandırıb-söndürmə düyməsinə inteqrasiya edilib. "Honor X60i" 35 vatt gücündə sürətli şarj texnologiyalı 5000 mAh enerji tutumlu batareya ilə təchiz olunub.



## Külək turbinləri üçün yeni texnologiya

**ABŞ-nin "CLS Wind" enerji şirkətinin təqdim etdiyi texnologiya külək turbinlərinin quraşdırılması xərclərinə 50 faiz qənaət edir. Şirkət həmçinin 75 faizə qədər aşağı emissiya miqdarı vədi verir.**

Şirkətin patentləşdirilmiş lift tipli montaj sistemi böyük kranlar, ağır yükdaşıyan barjalar və ya gəmilərdən istifadə etmədən külək turbinlərinin daha asan, təhlükəsiz və daha sürətli quraşdırılmasına imkan verir. Bundan əlavə, eyni texnologiyadan istifadə edilməklə texniki xidmət və quraşdırma işləri daha tez və sərfəli şəkildə idarə oluna bilər.

Şirkətdən verilən məlumata görə, yeni texnologiya ilə turbin və mühərrik bölməsini ağır yükdaşıyan barjalar və gəmilər olmadan quraşdırmaq mümkündür. Bu sistem dizaynı bütün platformalara uyğun olduğundan geniş yayılmış kiçik kranlardan istifadə etməklə həyata keçirilə bilər.



## Qeyri-adi biokompüter

**İsveçrədə yerləşən "FinalSpark" şirkəti qeyri-adi biokompüter təqdim edib. Onun hazırlanmasında laboratoriyada yetişdirilən insan beyin hüceyrələrindən istifadə edilib.**

Bu hüceyrələr orqanoidlər adlanan kiçik və sferik strukturlar şəklində təşkil edilib. Ümumilikdə 16 orqanoid 4 massivin daxilinə yerləşdirilir və hər biri 8 elektroda, habelə mikromaye sisteminə bağlanır. Bu sistem hüceyrələri su və qida ilə təmin edir.

İnnovativ biokompüter ənənəvi rəqəmsal prosessorlardan milyon dəfə az enerji sərf edir. Bu, süni intellekt və böyük dil modelləri kimi yüksək emal gücü tələb edən texnologiyalar üçün böyük üstünlük təklif edir. Məsələn, "GPT-3" kimi bir dil modelinin öyrədilməsi orta insanın illik enerji istehlakının 6000 qatını tələb edir. Halbuki 86 milyard neyronu olan insan beyni gündə cəmi 0,3 kilovat-saat enerji sərf edir.

"FinalSpark"ın biokompüteri uzaqdan əlaqə vasitəsilə idarə olunur və beyin orqanoidləri 100 günə qədər canlı qala bilir. Bu müddət ərzində hüceyrələrin elektrik fəaliyyəti davamlı olaraq ölçülür. Hazırda bu sistemdən bir çox tədqiqat qrupları öz təcrübələrini aparmaq üçün istifadə etməyə başlayıblar.

Şirkət gələcəkdə daha geniş spektrli eksperimental protokolları idarə edə bilmək üçün biokompüter platformasını inkişaf etdirməyi planlaşdırır. Bu, orqanoidlərə molekulların və dərmanların yeridilməsi kimi yeni funksiyaların əlavə edilməsini nəzərdə tutur. Bununla da həm hesablama texnologiyaları, həm də orqanoid tədqiqatlar üçün yeni imkanlar açılacaq.

## Sürücüsüz təmizlik maşınları




**İki ilə yaxındır ki, Çinin paytaxtı Pekində sürücüsüz nəqliyyat vasitələrinin idarəedilməsinə icazə verilib. Vətəndaşlara ilk olaraq robot taksi xidməti təklif edilib.**

İndi isə artıq digər xidmət sahələrində də sürücüsüz avtomobillərdən istifadə olunur. Belə ki, iyul ayında Çinin cənubunda yerləşən Quanqdonq əyalətində sürücüsüz təmizlik maşınları istifadəyə verilib. "Ağıllı" təmizləmə, növbənin planlaşdırılması və avtomatik əməliyyat üçün qabaqcıl sensorlarla təchiz edilmiş avtomobillər təmizlik işçilərinin təhlükəsizliyini təmin etməklə yanaşı, səmərəliliyi də artırır.

## "Rəssam dron"un ilk əsəri

**Rusiyada insan iştirakı olmadan rəsm çəkə bilən ilk dronun divar rəsmi nümayiş etdirilib. Dron rusiyalı rəssam Mişa Mostla mühəndis və proqramçılar qrupunun birgə layihəsidir.**

Rəsm texnologiyalara və onların təbiətlə qarşılıqlı əlaqəsinə həsr olunub.



Uçuş aparatının idarə edilməsində qabaqcıl texnologiyadan istifadə edilib.

Tərtibatçılar bildiriblər ki, dron dəqiq xətlər çəkə, rəsmlərin miqyasını və detallılığını dəyişdirə bilir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*



## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

### "AZƏRBAYCAN" *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


## Laçın rayonunda mina hadisəsi baş verib, xəsarət alan var

**İşğaldan azad edilmiş Laçın rayonunun Kalafalıq kəndi ərazisində avqustun 3-də mina hadisəsi baş verib.**

AZƏRTAC xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və Minatəmizləmə Agentliyinin (ANAMA) Mətbuat xidmətləri məlumat yayıb. Bildirilib ki, Laçın rayonunun Vağazin kənd sakini 1960-cı il təvəllüdlü Süleymanov Əli Zeynalabdin oğlu həmin rayonun Kalafalıq kəndi ərazisində Sarıbaba adlı yüksəkliyin otlaq sahəsində heyvan otararkən minalardan təmizlənməmiş ərazidə piyada əleyhinə minaya düşüb. Hadisə nəticəsində Əli Süleymanov sol ayağından xəsarət alıb.



Faktla bağlı Laçın Rayon Prokurorluğunda araşdırma aparılır.

ANAMA, AR DİN və Baş Prokurorluq bir daha vətəndaşları təhlükəsizlik qaydalarına riayət etməyə, mina təhlükəsi işarələrinin göstəricilərinə diqqətlə yanaşmağa və bələd olmadıqları ərazilərə daxil olmamağa çağırır!

## Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatı

Vətən müharibəsində əldə edilmiş tarixi zəfərdən sonra Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasına (Dövlət Komissiyası) və aidiyyəti dövlət qurumlarına daxil olan çoxsaylı müraciətlərin təhlili göstərir ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində I Qarabağ müharibəsində itkin düşmüş bir sıra şəxs aidiyyəti qeydiyyatlardan kənarda qalmışdır. Buna səbəb kimi I Qarabağ müharibəsindən sonrakı dövrdə bəzi itkin ailələrinin yaxınlarının rəsmi qeydiyyata alınması üçün Dövlət Komissiyasına müraciət etməməsi göstərilə bilər.

01.08.2024-cü il tarixə olan məlumata əsasən, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində 3961 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınmışdır. Onlardan 3953 nəfəri birinci Qarabağ müharibəsində, 8 nəfər isə Vətən müharibəsi və sonrakı dövrdə itkin düşmüş şəxslərdir. Müraciətlərin davam etməsi bunun yekun statistika olmayacağını deməyə əsas verir.

Qeyd olunanları nəzərə alaraq, Dövlət Komissiyası qeydiyyatdan kənarda qalmış və yaxınları ilə bağlı DNT nümunələri verməmiş itkin ailələrindən, o cümlədən itkin düşmüş şəxslərə dair məlumatı olan vətəndaşlardan qısa müddət ərzində işçi qrupu ilə əlaqə saxlayaraq itkin yaxınları barədə məlumatları və DNT nümunələrini verməyi xahiş edir.

## Xəzər dənizinin Azərbaycana mənsub bölməsində aşkar olunan qaçaqmal götürülüb

**Azərbaycanın dəniz sərhədlərinin etibarlı mühafizəsinin təmin edilməsi, Xəzər dənizində rejim qaydalarına nəzarətin gücləndirilməsi sahəsində təxirəsalınmaz tədbirlər davam etdirilir.**



Avqust ayının 1-də saat 04:30-da Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi tərəfindən Xəzər dənizinin cənub hissəsində sahildən 1,8 mil məsafədə - İran İslam Respublikasından şimal istiqamətinə hərəkət edən naməlum hədəf aşkar olunub.

Bu barədə AZƏRTAC-a Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən məlumat verilib.

Bildirilib ki, aşkarlanmış hədəfin saxlanılması məqsədilə dövlət sərhədinin mühafizəsində olan sərhəd gəmisi tərəfindən təqibetmə əməliyyatına başlanılıb, sahil nəzarəti bölmələri aidiyyəti üzrə məlumatlandırılıb və sahil xəttinin qapadılması üzrə təxirəsalınmaz tədbirlər görülüb.

Sahil Mühafizəsinin sahil nəzarəti bölmələri və sərhəd gəmisinin qarşılıqlı fəaliyyəti nəticəsində kiçikhəcmli üzmə vasitəsilə dövlət sərhədini pozmaqla Azərbaycan Respublikası ərazisinə keçməyə cəhd göstərən 1 nəfər İraq Respublikası vətəndaşı 1992-ci il təvəllüdlü Mahdi Salih Fayzi saxlanılıb.

Fakt üzrə əməliyyat-istintaq tədbiri davam etdirilir.

## *"Əl Ərəbiyə":* ABŞ Yaxın Şərqdə ən pis ssenariyə hazırlıq görür

**Vaşinqton genişmiqyaslı müharibə astanasında olan Yaxın Şərqdə ən pis ssenariyə hazırlıq görür. AZƏRTAC "Əl Ərəbiyə" telekanalına istinadla xəbər verir ki, ABŞ rəsmisi jurnalistlərə müsahibəsində bölgədə Birləşmiş Ştatların ən azı 12 döyüş gəmisinin, o cümlədən "Theodore Roosevelt" təyyarədaşıyan gəmisinin və 4 mindən çox dəniz piyadasının olduğunu bildirib. "The Washington Post" nəşri də bu məlumatı təsdiq edib.**



"Hizbullah" və HƏMAS-ın yüksəkrütbəli şəxslərinin Beyrutda və Tehranda ard-arda öldürülməsi fonunda İran və onun tərəfdaşlarının cavab əməliyyatları riskini artırıb.

ABŞ rəsmisi deyib: "Biz bütün ssenarilərə, amerikalıların regiondan potensial təxliyəsinə və ya Körfəz ölkələrindəki hərbi bazalarımıza qarşı hücumlara hazırlaşırıq".

Oktyabrın 7-də HƏMAS-ın İsrailə hücumundan qısa müddət sonra Pentaqon Yaxın Şərqə bir neçə döyüş gəmisi və digər hərbi obyektlərin göndərilməsi barədə göstəriş verib. ABŞ rəsmiləri bildiriblər ki, əsas səbəb İran və ya onun dəstəklədiyi digər qrupları ikinci cəbhə açmaqdan çəkindirmək olub.

Vaşinqtonda yerləşən Yaxın Şərq İnstitutunun beynəlxalq əlaqələr üzrə vitse-prezidenti Pol Salem "Hizbullah" və İranın mütləq qisas alacağını proqnozlaşdır. O qeyd edir ki, bu proseslər avtomatik olaraq böyük eskalasiya ilə nəticələnəcək".

Ağ Evin Milli Təhlükəsizlik Şurasının sözçüsü Con Kirbi isə bildirib ki, sui-qəsdlər bölgədə gərginliyin azaldılmasına kömək etmir.

**Oğuz rayon sakini, hazırda Sumqayıt şəhəri, 7-8-12-ci məhəllə, bina 94, mənzil 3-də müvəqqəti yaşayan 02.07.1975-ci il təvəllüdlü Qoşqar Əşrəf oğlu Gülməmmədova 2001-ci ildə Oğuz Rayon Hərbi Komissarlığı tərəfindən verilmiş M/N 051434 nömrəli veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3710
Sifariş 1682

Qiyməti 60 qəpik